Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 198 (7925) CÜMƏ AXŞAMI, 6 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## 100 ölkəyə ixrac, 790 milyon dollarlıq sifariş

### "Made in Azerbaijan" brendinin coğrafiyası genişlənir

**Son illərdə Azərbaycanın iqtisadi uğurlarının mühüm amillərindən birini məhz xarici iqtisadi əlaqələrinin inkişafı, tədiyyə balansının müsbət saldosu təşkil edir. İxracın həcmi artıq neçə illərdir ki, idxalın həcmini əhəmiyyətli dərəcədə üstələyir. İxracyönümlü istehsalın genişləndirilməsi istiqamətində görülən işlər ixracın strukturunun xeyli dərəcədə təkmilləşməsini təmin edib. Bunu rəqəmlərə nəzər yetirdikdə də açıq-aydın hiss etmək mümkündür.**

Ötən ilin yanvar ayından bu ilin 31 iyul tarixinə kimi azexport.az portalına dünyanın 100 ölkəsindən ixrac sifarişləri daxil olub. Bu sifarişlərin dəyəri isə 790,5 milyon dollar təşkil edib. Bu ilin son 7 ayında isə portala 315,5 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 faiz artım deməkdir.

### Son 7 ayda ən çox qeyri-neft sektoruna aid mal Rusiyaya ixrac edilib

Bu barədə məlumat İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın 2018-ci ilin avqust sayında əksini tapıb. İcmalın bu sayında qeyri-neft sektoru üzrə ixracın son statistikası və ən çox məhsulumuzun hansı ölkələrə ixrac edildiyi də göstərilib. Qeyd edilib ki, son 7 ay ərzində qeyri-neft sektoru üzrə ixrac 969 milyon dollar təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 7 ay ərzində Rusiyaya 353 milyon, Türkiyəyə 215 milyon, Gürcüstana 81 milyon, İsveçrəyə 78 milyon və Çinə 29 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin sentyabr ayının 1-də Soçidə Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi görüşdə də iki ölkə arasında iqtisadi-ticari sahədə əməkdaşlıq əsas müzakirə mövzusu olub. Qeyd edilib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Azərbaycandan qeyri-neft məhsullarının ixracı üzrə Rusiya birinci yerdədir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib.

### Qeyri-neft sektorundan ən çox ixrac edilən məhsul pomidordur

Bu ilin 7 ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (144 milyon dollar) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 68 milyon dollar) ikinci və xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (57 milyon dollar) üçüncü olub.

Ümumiyyətlə, 7 ay ərzində meyvə-tərəvəz ixracı 301 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 79 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 78 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 49 milyon, pambıq lifi 45 milyon, kimya sənayesi məhsullarının ixracı 41 milyon, pambıq ipliyi ixracı 12 milyon dollar təşkil edib.

2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ilk 7 ayında elektrik enerjisinin ixracı 2,2 dəfə, pambıq ipliyinin ixracı 32 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 16 faiz, meyvə-tərəvəzin ixracı 19 faiz, plastmas və onlardan hazırlanan məmulatların ixracı 14 faiz, kimya sənayesi məhsullarının ixracı 1 faiz artıb.

### Bir ayda 122 milyon dollarlıq qeyri-neft sektoruna aid mal ixrac edilib

Təkcə iyul ayında qeyri-neft sektoru üzrə ixrac 122 milyon dollar təşkil edib. İyulda ən çox mal ixrac edilən ölkələrin siyahısına Türkiyə (35 milyon dollar) liderlik edib. Daha sonra bu siyahıda Rusiya (33 milyon dollar), İsveçrə (9 milyon dollar), Gürcüstan (7 milyon dollar), Qazaxıstan (5,8 milyon dollar) və digər ölkələrin adları gəlir.

İyul ayında qeyri-neft sektoru üzrə ixracda pambıq lifi (mahlıc) birinci (16 milyon dollar), albalı və gilas (11milyon dollar) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 7,8 milyon dollar) isə üçüncü olub.

*Ardı 5-ci səh.*

## Azərbaycan-Yaponiya əlaqələri bütün sahələrdə uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini deyən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu qeyd etdi və əlaqələrimizin daha da inkişaf etdirilməsinə ümidvar olduğunu bildirdi. Taro Kono Yaponiyanın "İtoçu" və "İnpeks" şirkətlərinin uzun illər "Azəri-Çıraq-Günəşli" (AÇG) və Bakı-Tbilisi-Ceyhan (BTC) layihələrində pay sahibi olduqlarını vurğuladı, AÇG üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılmasının önəmini qeyd etdi və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi. Nazir daha sonra dedi ki, Yaponiya iki ölkə arasında birbaşa aviareyslərin açılmasında maraqlıdır və bu, turizm sahəsində əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət daşıyır.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu əlaqələrin siyasi, iqtisadi və digər sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, əməkdaşlığımızın gündəliyi çox genişdir və Yaponiyanın xeyli sayda şirkəti Azərbaycanda kontraktor, investor qismində uğurlu fəaliyyət göstərir. Eyni zamanda dövlətimizin başçısı iki ölkənin biznes dairələri arasında əməkdaşlığın daha da genişləndirilməsi yollarının müəyyən edilməsinin önəmini də vurğuladı. Ölkəmizin turizm imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycana gələn turistlərin sayının ildən-ilə artdığını qeyd etdi və respublikamızda turizm infrastrukturunun ən yüksək səviyyədə olduğunu dedi. Dövlət başçısı Yaponiyanın xarici işlər naziri Taro Kononun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulandı, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışıldı, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edildi.

## Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfərə gəlib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Zaqreb şəhərinin "Franyo Tucman" aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

"Franyo Tucman" aeroportunda Azərbaycan Prezidenti İlham Əliyevi Xorvatiya Prezidenti ofisinin rəhbəri xanım Anamariya Kiriniç və digər rəsmi şəxslər qarşıladılar.

## Pakistan İslam Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Alvi!

Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Pakistan münasibətləri xoş ənənələrə malikdir. Qardaş xalqlarımızın iradəsindən qaynaqlanan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi bu ənənələri bariz şəkildə ifadə edir.

İnanıram ki, strateji tərəfdaşlığımızın qorunub saxlanması və daha da möhkəmləndirilməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

## Esvatininin Kralı Əlahəzrət III Msvatiyə

Əlahəzrət!

Esvatini Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 sentyabr 2018-ci il*

## "AZƏRBAYCAN" – 100

## İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

### "Könlüm ayrılmayır, vətən, səndən!"

Şair Məhəmməd Hadinin vətəndən uzaq düşdüyü illərdə doğma diyarın nisgili ilə qələmə aldığı "Qərib ellərdə yadı-vətən" poeması hissə-hissə "Azərbaycan"da dərc olundu. Qürbətdə vətən həsrəti şairi belə dilləndirmişdi:

Çox uzaq olsa da, bu tən səndən,
Könlüm ayrılmayır, vətən, səndən!
Ey xəzanı gözümdə fəsli-bahar,
Ey gözəl ölkə. Ey sevimli diyar.

Hicran hələ ki uzaq idi. Azərbaycan onu sevən, müstəqilliyini özünə qaytaran, istiqlalını bərqərar edən, bayrağını yüksəldən övladlarının hürr yaşadığı məmləkət idi. Vətən həsrətindən, müstəmləkə zülmündən keçmiş günlərin xatirələri kimi bəhs edirdilər. Bütün çətinliklərə, məhrumiyyətlərə rəğmən gələcəyə inamlı, ümidli idilər. Bu duyğuları Üzeyir bəy belə ifadə edirdi: "...yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq" ("Azərbaycan" qəzeti, 18 noyabr, 1918, №43).

Vətənə həsr edilən ən gözəl şeirlərdən birini də Cəfər Cabbarlı bu iftixar hisslərinin təsiri ilə qələmə aldı. "Sevimli ölkəm" sərlövhəsi ilə çap olunan məşhur şeirində o, məmləkətinin gözəlliklərini tərənnüm edirdi:

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.

Verimli torpağı, geniş çölləri,
Çalışqan ərləri, igid elləri,
Böyük gəmiləri, dəmir yolları,
Keçidləri, rizləri var ölkəmin.

*("Azərbaycan" qəzeti, 1919, № 92).*

Sonralar yeni nəşrlərdə bu şeirə "düzəliş" ediləcək, müəllifin "Quzğun" adı ilə andığı dəniz Xəzər kimi veriləcəkdi. Əsərdəki bu son iki bənd isə "yoxa çıxacaqdı":

Yanar dağlarında yalov coşarmış,
Ona tapınmaya ellər qoşarmış,
Bir çağ varmış, ölkəm azad yaşarmış,
Bu yollarda izləri var ölkəmin.

İpəgindən qızlar çadra geyərlər,
Ölkələrin azad görmək dilərlər,
Bu yerləri bütün ellər sevərlər,
Yalnız bizdə gözləri var ölkəmin.

Azərbaycan Xalq Cumhuriyyəti istiqlal mücahidlərinin gerçəkləşmiş arzuları idi. Əmin Abid buna görə məqaləsinə "Yerini bulmuş arzular" ("Azərbaycan" qəzeti, 25 sentyabr, №4) adını verdi. O, həmin yazısında XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edildiyi dövrdən xalqın başına gətirilmiş müsibətlərdən, Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsi və sonunda istiqlalını qazandığından bəhs edirdi.

*(Əvvəli qəzetimizin 5 sentyabr tarixli sayında)*

### "Azərbaycan" qəzeti nələrdən yazırdı...

Qəzetin "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Xarici xəbərlər", "Bakı xəbərləri", "Azərbaycanda", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "Türkiyə mətbuatı", "Paris xəbərləri", "İran işləri", "Qəzetlərdən", "Sülh ətrafında", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və digər daimi rubrikaları var idi. Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları isə "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc edirdi.

Dövləti, milləti üçün əhəmiyyətli elə məsələ yox idi ki, bu qəzetdə işıqlandırılmasın. Dünyada baş verən mühüm hadisələrdən tutmuş Azərbaycanın əyalətlərində mövcud vəziyyətədək bütün lazımi məlumatlar qəzetdə əksini tapırdı. Yalnız çağdaş ictimai-siyasi həyata dair yazılara yer verilmirdi, Azərbaycanın və dünya dövlətlərinin tarixindən bəhs edən məqalələr də qəzetin daimi mövzuları sırasında idi. Fakt zənginliyi, əhatəliyi, rəngarəngliyi ilə diqqəti cəlb edən yazılar müxtəlif janrlarda qələmə alınırdı.

"Azərbaycan"ın bölgələrdə də xüsusi müxbirlərinin olması hadisələrin operativ şəkildə işıqlandırılmasına imkanlar yaradırdı. Qəzetin elə ilk nömrələrində ordumuzun Qarabağda apardığı uğurlu hərbi əməliyyatlar barəsində mütəmadi informasiyalar, məqalələr dərc olundu. "Azərbaycan"çılar Azərbaycan Xalq Cümhuriyyətinin başladığı böyük quruculuq işlərinə xidmət edirdilər. Qəzetin səhifələrində fəhlə və kəndli həyatına dair yazılara, oxucu məktublarına geniş yer ayrılırdı. Ədəbiyyat, teatr, muzey işi, səhiyyə və digər sahələrdə aparılan və ya həyata keçirilməsi zəruri məsələlər əksini tapırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əksəriyyəti vaxtlarının azlığına, dövlətçilik naminə həyata keçirməli olduqları işlərin çoxluğuna baxmayaraq, onları düşündürən müxtəlif mövzularda yazıları ilə bu qəzetdə çıxış edirdilər. Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan paytaxtı" adlı tarixi-publisistik məqaləsində cümhuriyyətin paytaxtının tarixi barədə materialların qaneedici qədər olmadığını bildirirdi:

*Ardı 7-ci səh.*

## Təhsilimizin artan balı

### Müstəqillik tarixində rekord tələbə sayı - 40806

**Son 5 tədris ilində ali təhsil müəssisələrinə qəbulun kəmiyyət göstəriciləri**




*Cədvəl 1.*

**Ən uğurlu universitetlərin innovasiya və iqtisadi artım mərkəzlərinə transformasiyası gözümüzün önündə baş verir. İstər birinci, istər ikinci amil bilik iqtisadiyyatının mövcudluğunu şərtləndirir. İstənilən iş yerini tutmaq üçün əmək bazarına daha bilikli insanlar dəvət olunur. İnsanlar bunu anlayaraq ali təhsilə üz tutur.**

Müasir dövrdə insan kapitalı fenomeninin əsas şərtlərindən biri ali təhsilin əlçatan olmasıdır. Bu əlçatarlıq həm də ali təhsillə əhatə olunma səviyyəsini müəyyən edir. Sevindirici haldır ki, son 5 il ərzində ölkəmizin universitetlərinə qəbul olunan tələbələrin sayında davamlı artım müşahidə olunur. Və cari tədris ilində bu say indiyədək rekord göstəricidir- **40 806 tələbə**. Son 5 tədris ilində tələbə qəbulunun proqnoz yerləri 20,8 faiz, faktiki qəbul olunan tələbələrin sayı isə 21,2 faiz artıb.

*Ardı 4-cü səh.*

Novruz MƏMMƏDOV:

## "Azərbaycanın Yaponiya ilə münasibətlərində iqtisadi əməkdaşlıq prioritet istiqamətlərdəndir"



Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdi. Baş nazir bildirdi ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra iki ölkə arasında münasibətlər sürətlə inkişaf edib. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfərlərini xatırladan Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında əhəmiyyətini xüsusi vurğuladı.

Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Yaponiya arasında energetika, iqtisadiyyat, sərmaye qoyuluşu, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək digər istiqamətlərdə də əlaqələrin inkişafı üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırdı.

Qeyd olundu ki, Azərbaycanın Yaponiya ilə münasibətlərində iqtisadi əməkdaşlıq prioritet istiqamətlərdəndir. Hazırda Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan tərəfindən yeni həmsədrinin təyin olunması məsələsinə baxılmaqdadır.

Qonaqlara Azərbaycanda yeni yaradılmış sənaye parkları haqqında ətraflı məlumat verən Baş nazir bildirdi ki, Yaponiya şirkətləri bu sənaye parklarına cəlb oluna bilər.

Yaponiya xarici işlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyini bildirən Novruz Məmmədov bu səfərin qarşılıqlı əlaqələrimizin genişlənməsində önəmini vurğuladı.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Yaponiyanın xarici işlər naziri Taro Kono ölkəmizə 19 il əvvəl səfər etdiyini xatırlatdı. Taro Kono bildirdi ki, əlverişli geosiyasi mövqedə yerləşən, logistik mərkəzə çevrilən və enerji təhlükəsizliyi baxımından mühüm rol oynayan Azərbaycan Yaponiyanın vacib tərəfdaşıdır. Yaponiyanın xarici işlər naziri oktyabrın 1-dən Azərbaycan vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin tətbiq olunması ilə bağlı qərar verdiklərini bildirdi.

## Azərbaycanın fövqəladə hallar naziri Polşada səfərdə olub



Fövqəladə hallar naziri, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının həmsədri Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 4-də Polşada səfərdə olub.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Polşanın hökumət nümayəndələri ilə görüşlər keçirilib, səmərəli müzakirələr aparılıb.

Nazir Kəmaləddin Heydərov Polşanın xarici işlər naziri Yatsek Çaputoviç, sahibkarlıq və texnologiya naziri, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Polşa tərəfindən həmsədri Yadviqa Emileviç, infrastruktur nazirinin müavini, Azərbaycan Respublikası - Polşa Respublikası nəqliyyat və logistika işçi qrupunun Polşa tərəfindən həmsədri Andjey Bittel ilə görüşüb.

Görüşlərdə Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya çərçivəsində müvafiq sahələr üzrə əməkdaşlığın inkişafı və komissiyanın növbəti iclasına hazırlıqla bağlı bir sıra məsələlər müzakirə edilib. Həmçinin iki ölkə arasında iqtisadi, ticarət və investisiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində keçirilən "dəyirmi masa"da ölkələrimiz arasında iqtisadi inkişafın hazırkı səviyyəsi müzakirə edilib, mövcud əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

## Yaponiya xarici işlər naziri Şəhidlər xiyabanını ziyarət edib

Yaponiya xarici işlər naziri Taro Kono sentyabrın 5-də Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Yaponiya xarici işlər nazirinə Şəhidlər xiyabanının tarixi və şəhərimizdə aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır

## Şahin Mustafayev: "Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri ölkələrimizin əməkdaşlığının bütün istiqamətlərdə inkişafına mühüm töhfə verəcək"

**Xəbər verildiyi kimi, sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına rəsmi səfər edib. Səfər çərçivəsində dövlət başçılarının təkbətək və geniş tərkibdə görüşləri keçirilib, ölkələrimiz arasında müxtəlif sahələrdə 17 sənəd imzalanıb, prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan-Rusiya əlaqələrinin kompleks inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən bu səfər iqtisadi sahədə ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində də mühüm önəm daşıyır. İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfərinə, eləcə də Azərbaycan-Rusiya iqtisadi əlaqələrinə dair AZƏRTAC-ın suallarını cavablandırıb.**



*- Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfərini ölkələrimiz arasında əməkdaşlığın inkişafı baxımından necə səciyyələndirərdiniz?*

- İlk növbədə qeyd etmək istərdim ki, Azərbaycan-Rusiya əlaqələri möhkəm dostluğa, mehriban qonşuluğa, etibarlı tərəfdaşlığa və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və prezidentlərin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verir. Son üç ayda Azərbaycan və Rusiya prezidentləri 3 dəfə görüşüb. Bütün bunlar isə dövlət başçılarının qarşılıqlı əməkdaşlığın genişlənməsinə verdikləri böyük önəmin göstəricisidir. Siyasi əlaqələrin strateji xarakteri, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına sentyabrın 1-də reallaşdırılan növbəti rəsmi səfəri mühüm əhəmiyyət kəsb edir.

Səfər çərçivəsində aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının gələcək inkişafı üçün möhkəm əsas yaradır. Səfərin 2008-ci ildə Azərbaycan və Rusiya arasında imzalanmış dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamənin 10 illiyinə təsadüf etməsi xüsusilə qeyd olunmalıdır. Rusiya səfərinin başlıca xüsusiyyətlərindən biri də onun daha çox iqtisadi mahiyyət daşımasıdır. Belə ki, səfər zamanı Azərbaycan-Rusiya əməkdaşlığının müxtəlif istiqamətləri ilə yanaşı, iqtisadi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında əlaqələrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm sənədlər imzalanıb.

Bu sənədlər arasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat" xüsusilə vurğulanmalıdır. Sənəddə qarşılıqlı faydalı ticari-iqtisadi və investisiya əməkdaşlığının inkişafı üçün ticarətdə daha əlverişli şəraitin yaradılması, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Rusiya-Azərbaycan hissələrində tranzit-nəqliyyat potensialının artırılması, milli iqtisadiyyatın və ixracın şaxələndirilməsi, innovasiyalı inkişaf sahəsində məsələlərin həlli üçün perspektiv sahələrdə və sektorlarda birgə istehsalın yaradılması, dövlət idarəçiliyi sahəsində innovativ yanaşmaların, büdcə-vergi sahəsində müasir rəqəmsal texnologiyaların tətbiqi üzrə birgə fəaliyyətin inkişafı, dövlət sektorunda istifadə üçün qabaqcıl proqram təminatının tətbiqi üzrə təcrübə mübadiləsi və əməkdaşlıq, gənclər siyasəti, təhsil, idman və turizm məsələləri daxil olmaqla humanitar sahədə əməkdaşlığın genişləndirilməsi kimi mühüm prioritetlər müəyyənləşdirilib. Birgə Bəyanatda əksini tapan inkişaf istiqamətləri Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı mövcud strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsində iqtisadi əməkdaşlığın rolunu və əhəmiyyətini artıracaq, iqtisadi-ticari əlaqələrin müasir tələblərə cavab verən yeni inkişaf səviyyəsinə yüksəldilməsinə zəmin yaradacaqdır.

Bununla yanaşı, səfər çərçivəsində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək Əməkdaşlıq Proqramı", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi haqqında Saziş", eləcə də turizm, gömrük, idman, rəqəmsal nəqliyyat, əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti, Rusiyanın müvafiq dövlət şirkətləri və SOCAR arasında əməkdaşlığın genişləndirilməsi, müxtəlif vertolyotlara texniki xidmət göstərilməsi barədə müvafiq sənədlər Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin genişlənməsinə əlavə stimul verəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Rusiyanın "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" publik hüquqi şəxs arasında qarşılıqlı Anlaşma Memorandumu çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi də imzalanıb. Sənəddə kiçik və orta biznes (KOB) subyektlərinə informasiya-marketinq dəstəyinin göstərilməsi sahəsində əməkdaşlıq, kontakt birjaların təşkili, təcrübə, maliyyə-sığorta və marketinq dəstəyi, təlim proqramları, eləcə də digər istiqamətlər üzrə təcrübə barədə məlumat mübadiləsi nəzərdə tutulur. Bundan əlavə, yol xəritəsinə əsasən, Rusiya və Azərbaycanda KOB sahəsində fəaliyyət göstərən istehsal birlikləri və assosiasiyaları, inkişaf institutları arasında qarşılıqlı məsləhətləşmələrin aparılması və əməkdaşlığın qurulmasına dəstək göstəriləcəkdir.

*- Səfər zamanı imzalanmış "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı" özündə 5 yol xəritəsini əks etdirir. Bu barədə məlumat verməyinizi xahiş edirik.*

- Həmin Fəaliyyət Planına uyğun olaraq, bu yol xəritələri ticarət, nəqliyyat, Azərbaycan ərazisində birgə istehsalın yaradılması, büdcə-vergi sektorunun rəqəmsallaşdırılması sahələrində qarşılıqlı fəaliyyəti və humanitar sahədə əməkdaşlığı nəzərdə tutur.

Azərbaycan və Rusiya arasında ticarətə dair yol xəritəsinə əsasən, ticari-iqtisadi əməkdaşlıq üzrə məsləhətləşmələr aparılacaq, kənd təsərrüfatı məhsullarının tədarükü artırılacaq, qarşılıqlı ticarət missiyaları həyata keçiriləcək, Rusiyanın dövlət şirkətləri tərəfindən Azərbaycan istehsalı olan sənaye təyinatlı məhsulların alınması genişləndiriləcək, Rusiya ərazisində Azərbaycan Ticarət evləri açılacaq, hər iki ölkənin İşgüzar Şuraları, həmçinin digər sahibkar birlikləri arasında biznes-dialoq dəstəklənəcək, birgə regionlararası forumlar, kənd təsərrüfatı üzrə Azərbaycan-Rusiya İşçi Qrupunun iclasları keçiriləcək.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişafı üzrə yol xəritəsində ölkələrimizin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə qarşılıqlı fəaliyyəti, Azərbaycan və Rusiya ərazilərində logistik mərkəzlərin yaradılması, "Yaraq-Qazmalar" avtomobil buraxılış məntəqəsinin buraxılış qabiliyyətinin artırılması üçün yenidənqurma işlərinin aparılması, Azərbaycan-Rusiya dövlət sərhədindən "Yaraq-Qazmalar" (Rusiya Federasiyası) - "Samur" (Azərbaycan Respublikası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə dair sazişin icrası nəzərdə tutulur.

Azərbaycan ərazisində birgə istehsalın (layihələrin) yaradılması üzrə yol xəritəsində əczaçılıq, avtomobillərin yığılması, neft-qaz sahəsi üçün avadanlığın birgə istehsalının təşkili, kənd təsərrüfatı texnikasının istehsalı sahələrində birgə istehsalın və müəssisələrin yaradılması, eləcə də dəmir yolu vaqonlarının birgə istehsalının yaradılması imkanlarına baxılması məsələləri əksini tapıb.

Büdcə-vergi sektorunun rəqəmsallaşdırılması sahəsində qarşılıqlı fəaliyyət üzrə yol xəritəsi vahid ƏDV depozit hesabından istifadə və subhesabların idarə edilməsi təcrübəsinin öyrənilməsi, kommersiya hüquqi şəxslərinin elektron dövlət qeydiyyatı, elektron faktura və qaimələrin istifadəsi, həmçinin vergi borcunun alınması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım məsələləri üzrə Anlaşma Memorandumu layihəsi ilə bağlı danışıqların aparılması məsələlərini əhatə edir.

Qarşılıqlı səfərlərin və humanitar əlaqələrin genişləndirilməsi üzrə yol xəritəsinə əsasən miqrasiya sahəsində əməkdaşlıq üzrə tədbirlər görüləcək, pensiya təminatı sahəsində ikitərəfli əməkdaşlıq inkişaf etdiriləcək, turizm məhsulunun təşviqi üzrə milli marketinq strategiyaları hazırlanacaq və bu sahədə təcrübə mübadiləsi həyata keçiriləcək, Azərbaycan və Rusiya ərazilərində keçirilən beynəlxalq turizm sərgilərində, seminarlarda və reklam-informasiya tədbirlərində qarşılıqlı iştirak təmin ediləcək, turizm sahəsində investisiya layihələrinə dair məlumat mübadiləsi aparılacaq, Rusiyanın qabaqcıl ali təhsil müəssisələrinin filiallarının Azərbaycanda açılması imkanları müzakirə olunacaq.

Beləliklə, "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə 2024-cü ilədək Fəaliyyət Planı"nın həyata keçirilməsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

*- Energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsi də Rusiyada keçirilən görüşlərdə əsas müzakirə mövzularından olub...*

- Tamamilə doğrudur. Energetika sahəsində Azərbaycan-Rusiya əməkdaşlığı xüsusi diqqət göstərilən məsələlərdəndir. Artıq qeyd olunduğu kimi, səfər zamanı "Rosneft" Neft Şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi, "Qazprombank" Səhmdar Cəmiyyəti, "Rusiya İxrac Mərkəzi" Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya Federasiyasından ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında sazişlər və "Rosneft" Neft Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında müqavilə imzalanıb. Bu sənədlər SOCAR-ın Rusiyanın neft-qaz şirkətləri ilə səmərəli və uzunmüddətli əməkdaşlığını nəzərdə tutur.

Bununla yanaşı, dövlət başçılarının görüşlərində hər iki ölkənin energetika sistemlərinin paralel rejimdə fəaliyyət göstərdiyi qeyd olunub. Görüşlərdə Azərbaycan və Rusiya enerji sistemləri arasında 330 kVt-luq ikinci dövlətlərarası "Yaşma-Dərbənd" elektrik verilişi xəttinin tikintisi məsələsi müzakirə olunub. Bu, mövcud elektrik verilişi gücünü 600 mVt-dək artırmağa imkan yaradacaq və Rusiya-Azərbaycan-İran enerji dəhlizinin inkişafına töhfə verməklə, Azərbaycan və Rusiyanın enerji təhlükəsizliyinə xidmət edəcək.

*- Dövlət başçılarının görüşlərində nəqliyyat-tranzit sahəsində Azərbaycan-Rusiya əməkdaşlığı mühüm istiqamətlərdən biri kimi qeyd edilib.*

- Azərbaycan Respublikası Prezidentinin Rusiyaya səfəri zamanı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin region üçün əhəmiyyəti, tranzit və yükdaşımaların həcminin artmasında önəmi xüsusilə vurğulanıb.

Belə ki, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və bu baxımdan əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq məqsədilə nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində mühüm işlər görülür. Azərbaycan və Rusiya arasında avtomobil, dəmir yolları və hava nəqliyyatı ilə sərnişin və yükdaşımalar həyata keçirilir.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi nəinki Azərbaycan, həm də digər ölkələr, eləcə də Rusiya üçün nəqliyyat-tranzit sahəsində əməkdaşlıq baxımından əhəmiyyətlidir. Rusiyada keçirilən görüşlərdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Azərbaycanın bütün infrastruktur layihələrini həyata keçirdiyi, nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığı xüsusilə vurğulanıb. Qeyd olunub ki, bu nəqliyyat dəhlizinin potensialı daha böyükdür. Bu dəhliz daha çox ölkəni əhatə etməklə, iqtisadi-ticari əlaqələrin genişlənməsində və tranzit imkanlarının artmasında faydalı ola bilər. Hazırda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin ayrı-ayrı hissələri üzrə işlər davam etdirilir. Nəqliyyat dəhlizinin bir hissəsi olan və Rusiya ilə birgə həyata keçirilən Samur sərhəd çayı üzərindən körpünün tikintisinin 2019-cu ildə başa çatdırılması nəzərdə tutulur. Bu, Azərbaycan-Rusiya nəqliyyat və ticarət əlaqələrinin inkişafına, yük daşımalarının artmasına əhəmiyyətli dərəcədə təsir edəcəkdir.

Səfər zamanı, həmçinin Rusiyanın Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yükdaşımalar həyata keçirməsi imkanları, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə Azərbaycan istehsalı olan aksizli malların ixracı üçün Azərbaycan-Rusiya sərhədində xüsusi gömrük postunun yaradılması məsələləri də müzakirə edilib. Görüşlərdə gömrük infrastrukturunun təkmilləşdirilməsi istiqamətində işlərin aparıldığı vurğulanıb.

*- Azərbaycandan Rusiyaya ənənəvi olaraq daha çox kənd təsərrüfatı məhsulları ixrac olunur. İxracın həcminin artırılması üçün hansı tədbirlər görülür?*

- Qeyd etməliyəm ki, kənd təsərrüfatı məhsulları ticarətinin genişləndirilməsi, Azərbaycandan Rusiyaya meyvə-tərəvəz satışının artırılması dövlət başçıları tərəfindən qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Bu sahədə əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının nəzdində müvafiq İşçi Qrup fəaliyyət göstərir. İşçi Qrup tərəfindən görülmüş tədbirlər nəticəsində indiyədək 20-dən çox Azərbaycan müəssisəsi Rusiya Federasiyası Kənd Təsərrüfatı Nazirliyi yanında Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətin reyestrinə daxil edilib və həmin müəssisələrə istehsal etdikləri ət və süd məhsullarının maneəsiz olaraq Rusiyaya ixrac edilməsinə razılıq verilib.

Yeri gəlmişkən deyim ki, mütəmadi olaraq keçirilən videokonfranslarda istehsalçıların və fermerlərin Rusiya bazarına daha rahat çıxışı üçün yaradılan əlavə imkanlar barədə qarşı tərəf məlumatlandırılır, ortaya çıxan məsələlərin operativ həlli üçün müvafiq tədbirlər görülür, bu məhsulların istehsalını və ixracını artırmaq üçün müxtəlif stimullaşdırma mexanizmləri tətbiq edilir.

Bundan başqa, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Rusiyaya ixrac missiyaları təşkil edilib, Azərbaycan şirkətləri Rusiyada keçirilmiş "Worldfood", "Prodexpo" və digər önəmli sərgilərdə vahid ölkə stendi ilə təmsil olunub, ölkəmizin meyvə və meyvə şirələrinə dair "Rossiya 24" telekanalında reklam çarxları nümayiş etdirilib. Bu ilin sonunadək Rusiyaya yeni ixrac missiyaları təşkil olunacaq, Azərbaycanın 30-dan çox şirkətinin məhsulları sentyabrda qonşu ölkədə keçiriləcək "Worldfood Moscow" sərgisində vahid ölkə stendində nümayiş etdiriləcək. Qeyd edim ki, 2017-ci ildə olduğu kimi, bu il də Azərbaycan "Worldfood Moscow" sərgisinin eksklüziv tərəfdaşıdır. Bu tədbirlər çərçivəsində Azərbaycanın kənd təsərrüfatı və emalı məhsullarının Rusiyaya ixracına dair müqavilələr bağlanıb və hazırda bu müqavilələr üzrə ixrac davam etdirilir.

Görülən işlərin nəticəsi olaraq, 2017-ci ildə Rusiyaya meyvə ixracı 20,9 faiz, tərəvəz ixracı isə 58,4 faiz artıb. Bu ildə də artım meyili davam edir. Belə ki, 2018-ci ilin birinci yarısında meyvə ixracında 70,6 faiz, tərəvəz ixracında isə 10,3 faiz artıma nail olunub.

*- Cənab nazir, Azərbaycan-Rusiya əlaqələrinin hazırkı vəziyyəti, imzalanmış sənədlərin əməkdaşlığın gələcək inkişafında rolu barədə nə deyərdiniz?*

- Əvvəlcə qeyd edim ki, Azərbaycanla Rusiya arasında ticarət, investisiya, sənaye, energetika, aqrar, nəqliyyat və tranzit daşımaları, səhiyyə, gömrük, bankçılıq, idman, turizm və digər sahələr üzrə çoxşaxəli əməkdaşlıq həyata keçirilir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və ölkələrimiz arasında ticarət dövriyyəsi dinamik olaraq artır. Rusiya idxala görə Azərbaycan üçün əsas tərəfdaşdır, qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir. Bununla belə, ticarət əlaqələrinin daha da genişlənməsi üçün sistemli və ardıcıl tədbirlər davam etdirilir.

Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyinin məhz Rusiya Federasiyasında yaradılması iqtisadi-ticarət əlaqələrinin inkişafına verilən önəmin göstəricisidir. Bu ilin mayında Həştərxanda Heydər Əliyev Fondunun dəstəyi ilə açılmış Azərbaycan İş Mərkəzi iqtisadi əlaqələrin genişlənməsində xüsusi əhəmiyyətə malik mexanizmdir. 2018-ci ilin sonunadək İş Mərkəzində şərab və çay evləri fəaliyyətə başlayacaq. Bu il, həmçinin Rusiyanın Yekaterinburq şəhərində Azərbaycan Ticarət Evinin, Moskva və Sankt-Peterburq şəhərlərində isə Azərbaycan Şərab evlərinin açılması planlaşdırılır. Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, Moskvadakı Ümumrusiya Sərgi Mərkəzində Azərbaycan pavilyonunun yaradılması istiqamətində görülən işlər ticarət əlaqələrinin genişlənməsinə əhəmiyyətli töhfələrdir.

Azərbaycan-Rusiya iqtisadi-ticari əlaqələrinin inkişafında Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının fəaliyyəti də qeyd edilməlidir.

Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşları və birgə layihələr həyata keçirilir. Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayə qoyulub, Rusiya isə Azərbaycan iqtisadiyyatına 4 milyard ABŞ dollarından artıq investisiya yatırıb. Azərbaycanda Rusiya kapitallı 700-dən çox şirkət fəaliyyət göstərir.

"SOCAR Polymer" layihəsi və Pirallahı Sənaye Parkında yaradılan Azərbaycan-Rusiya birgə əczaçılıq müəssisəsi iqtisadi əməkdaşlığımızın önəmli nümunələrindəndir. "SOCAR Polymer" polipropilen qurğusu artıq fəaliyyət göstərir, yüksək təzyiqli polietilen qurğusu bu ilin sonunadək istismara veriləcəkdir. Əczaçılıq zavodunda qablaşdırma xəttinin isə 2019-cu ildə istifadəyə verilməsi nəzərdə tutulur.

2015-ci ildə imzalanmış müqaviləyə uyğun olaraq, hazırda Gəncə avtomobil zavodunda "KamAZ" markalı yük maşınları yığılır. Bu sahədə əməkdaşlığın davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri zamanı Hacıqabul Sənaye Məhəlləsində kiçik tonnajlı "QAZ" markalı avtomobillərin yığılması barədə razılıq əldə edilib və bu məqsədlə sənaye məhəlləsində zavod tikiləcəkdir.

Azərbaycan, həmçinin Rusiyanın federal subyektləri ilə də sıx əməkdaşlıq edir və Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlardandır. Yessentukidə "İstoçnik" sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri və çay istehsalı zavodları, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və sair Rusiyada Azərbaycan şirkətləri tərəfindən reallaşdırılan uğurlu layihələrdəndir.

Azərbaycan və Rusiya arasında ənənəvi regionlararası forumlar təşkil edilir və belə tədbirlər ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. Növbəti Azərbaycan-Rusiya Regionlararası Forumunun bu ilin sentyabrın sonunda ölkəmizdə keçirilməsi nəzərdə tutulur.

Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının perspektivlərinə gəlincə isə, ölkəmiz əlaqələrin genişlənməsinə xüsusi önəm verir və bu baxımdan sənaye, neft maşınqayırması, turizm, tranzit, Rusiya şirkətlərinin Azərbaycanda yaradılan sənaye parklarında və aqroparklarda investor kimi iştirakı, birgə müəssisələrin yaradılması, qeyri-neft məhsullarımızın Rusiyaya ixracının, regionlararası əməkdaşlığın genişləndirilməsi və sair sahələrdə əməkdaşlıq imkanları genişdir.

İqtisadi sahə ilə yanaşı, digər sahələrdə də uğurlu əməkdaşlıq həyata keçirilir. Humanitar sahədə ölkələrimiz arasında əlaqələrin inkişafında Heydər Əliyev Fondunun və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) mühüm xidmətləri vardır.

Ölkələrimizin təhsil sahəsində də əlaqələri inkişaf edir. Bu baxımdan, Azərbaycanda M.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filiallarının uğurlu fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Qeyd edim ki, Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Azərbaycanda təhsilin rus dilində olduğu 340-dan çox məktəb, rus və digər slavyan dillərinin tədris edildiyi Bakı Slavyan Universiteti, Azərbaycanın Təhsil Nazirliyinin tabeliyində olan 14 ali təhsil müəssisəsində müxtəlif ixtisaslar üzrə rus bölmələri fəaliyyət göstərir.

Sonda bir daha vurğulamaq istərdim ki, Azərbaycan Respublikası Prezidentinin Rusiya Federasiyasına rəsmi səfəri, səfər çərçivəsində imzalanmış sənədlər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsində, mövcud potensialın daha dolğun reallaşdırılmasında böyük təkan olmaqla, dövlət başçılarının müəyyənləşdirdiyi prioritetlər üzrə qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası iqtisadi-ticari əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.

# Yaponiyada Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə böyük maraq göstərilir



Azərbaycanla Yaponiya arasında əlaqələr yüksək səviyyədədir. Ölkəmizdə Yaponiyanın 30 şirkəti fəaliyyət göstərir. Yaponiya Azərbaycana təqribən 7 milyard dollar investisiya yatırıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan yaponiyalı həmkarı Taro Kono ilə birgə keçirdiyi mətbuat konfransında deyib. E.Məmmədyarov qeyd edib ki, Azərbaycana gələn yapon turistlərin sayı artır. Bu gün turizmin inkişafı üçün Yaponiya və Azərbaycan arasında birbaşa aviareysin açılması məsələsi də müzakirə edildi. Belə bir aviareys açıla bilər.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Yaponiyanın mövqeyi bəllidir. Onlar hesab edirlər ki, bu münaqişə tezliklə öz həllini tapmalıdır", - deyə Elmar Məmmədyarov vurğulayıb.

O qeyd edib ki, yaponiyalı həmkarı ilə görüş zamanı Azərbaycan və Yaponiya arasında müxtəlif sahələrdə sərmayələrin qoyulması məsələləri müzakirə edilib. Yaponiya şirkətləri Azərbaycanda infrastruktur layihələrinin həyata keçirilməsində maraqlıdır. Yaponiya tərəfindən Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafına böyük maraq göstərilir.

Bakıda səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kono bildirib ki, ölkəsi Azərbaycan vətəndaşları üçün viza rejimini sadələşdirmək qərarına gəlib. Yaponiya Azərbaycanla çoxşaxəli münasibətləri möhkəmləndirmək istəyir.

Bu səfər nəticəsində iki ölkə arasında dostluq əlaqələrinin inkişaf edəcəyinə ümid bəslədiyini deyən T.Kono vurğulayıb ki, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi üzrə sazişin yenilənməsi məmnunluq doğurur. Bu, əməkdaşlığın güclənməsinə yeni təkan verəcək.

# Yaponiya Azərbaycan ilə əlaqələrini daha da inkişaf etdirmək niyyətindədir

*Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yaponiyalı həmkarı Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb*

Xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazir Elmar Məmmədyarov iki ölkə arasında əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Ölkəmizdə səfərdə olan Yaponiyanın xarici işlər naziri Taro Kono ona göstərilən diqqətə görə məmnunluğunu ifadə edib. O, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını bildirib. Ölkəmizin mühüm coğrafi məkanda yerləşdiyini qeyd edən qonaq Yaponiyanın Azərbaycan ilə əlaqələrini daha da inkişaf etdirmək niyyətində olduğunu vurğulayıb.

Nazirlər Azərbaycan və Yaponiya arasında qarşılıqlı anlaşma və hörmətə əsaslanan dostluq münasibətlərinin qurulduğunu bildirərək ikitərəfli siyasi dialoqun inkişafından məmnunluqlarını ifadə ediblər. Tərəflər enerji sahəsində uğurlu əməkdaşlığın olduğunu bildirərək iqtisadiyyatın digər sahələri, xüsusilə qeyri-neft sektoru üzrə əlaqələrin inkişafı üçün geniş perspektivlərin olduğunu qeyd ediblər.

Elmar Məmmədyarov ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi üzrə aparılan köklü islahatlar barədə məlumat verərək Yaponiya şirkətlərinin qeyri-neft sektorunda daha fəal surətdə təmsil olunması üçün cəlbedici imkanların olduğunu deyib. Diqqətə çatdırıb ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərindən Yaponiya şirkətləri də faydalana bilərlər. O, həmçinin yaponiyalı həmkarına TAP və TANAP layihələri ilə bağlı görülən işlər haqqında məlumat verib.

İki dövlət arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələlərinə toxunan tərəflər "GUAM + Yaponiya" formatında tərəfdaşlığın vacibliyini qeyd ediblər.

Görüşdə Azərbaycanın ali təhsil müəssisələrində yapon dilinin tədrisinin, tələbə mübadiləsinin, bu ilin sentyabrında ölkəmizdə cüdo üzrə dünya çempionatının keçirilməsinin, qarşılıqlı mədəni proqramların təşkilinin ikitərəfli humanitar əlaqələrin inkişafına və təmasların artmasına xidmət etdiyi bildirilib. Həmçinin təhsil, idman və mədəni tədbirlərin turizm sahəsində əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd olunub və birbaşa aviareyslərin açılması məsələsi nəzərdən keçirilib.

Nazirlər regional və beynəlxalq gündəliyə aid məsələlərə dair geniş fikir mübadiləsi aparıblar. Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi barəsində məlumat verərək münaqişənin həll olunmamasının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğunun regional sülh və təhlükəsizliyə ciddi təhdid olduğunu bildirib. O, münaqişənin siyasi yolla həlli və ədalətli sülhün təmin olunması üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunlarının bütün işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu vurğulayıb.

Taro Kono Yaponiyanın münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllini dəstəklədiyini bildirib. Yaponiyalı nazir iki ölkə arasında təmasların yaxşılaşdırılması məqsədilə Azərbaycan vətəndaşları üçün viza rejiminin sadələşdirildiyini diqqətə çatdırıb.

Nazir Elmar Məmmədyarov Yaponiyanın beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq GUAM-Yaponiya sənədlərində qeyd olunduğu kimi, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığını dəstəkləməsinin təqdir edildiyini deyib.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçiriblər.

# "Aşura" mərasimlərində ənənəvilik və müasirlik prinsiplərinə riayət olunmalıdır

Sentyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Lənkəran Şəhər və Masallı Rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə keçirilən seminar-müşavirələrdə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, tədbirlərdə DQİDK-nın, QMİ-nin məsul işçiləri, dini icma sədrləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla anıblar.

Lənkəranda keçirilən seminar-müşavirədə çıxış edən şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayıb. Taleh Qaraşov Lənkəranda dini zəmində heç bir problemin olmadığını, məscidlərdə dini mərasimlərin keçirilməsi üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı çıxışında İslam dünyasının bir parçası olan Azərbaycanda milli-mənəvi irsimizin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində görülən ardıcıl tədbirlərdən danışıb, İslam dininin milli-mənəvi dəyərlərimizdə, adət-ənənələrimizdə, həyat tərzimizdə dərin izlər buraxdığını bildirib.

Qeyd olunub ki, hər bir xalqın adət-ənənələri onun mənsub olduğu dinlə sıx bağlıdır. Ölkəmizdə də İslam dini ilə bağlı mərasimlər formalaşıb. Bu mərasimlərin icrasında müəyyən dəyişikliklər olsa da, onların əsas məzmunu qalmaqdadır.

Azərbaycanda milli ruhun yüksəlməsində ulu öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu qeyd edən komitə sədri dövlət müstəqilliyimizin bərpasından sonra ümummilli liderin ölkəmizdə formalaşdırdığı azərbaycançılıq ideologiyasının adət-ənənələrimizin qorunması baxımından əhəmiyyətini vurğulayıb. Bildirilib ki, əsası ulu öndər tərəfindən qoyulan dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla aparılır, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir.

İslam ölkələrində dövlət-din münasibətlərinin müxtəlif formalarda olduğunu söyləyən M.Qurbanlı Azərbaycanda bu münasibətlərin dünyəvilik prinsiplərinə söykəndiyini, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dini mərasimlərini azad şəkildə icra etdiyini, onların arasında dünyəvilik prinsiplərinə əsaslanan tarazlığın qorunub saxlandığını diqqətə çatdırıb.



Qeyd olunub ki, dini mərasimlər tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi və həyat tərzimizi əks etdirməlidir. Dini mərasimlər arasında Məhərrəmlik mərasimləri də tarixi adət-ənənələrimizə söykənir. Müsəlman dünyasında Məhərrəm ayının başlanması və "Aşura" günü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının "Fətva" verdiyini deyən komitə sədri Məhərrəmlik mərasimləri zamanı "Fətva"nın müddəalarına ciddi riayət olunmasının, dini mərasimlərin yalnız məscidlərdə keçirilməsinin vacibliyini bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında qeyd edib ki, ölkəmizin cənub bölgəsinin əhalisi həmişə dövlətimizə və dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiq olub.

Milli-mənəvi dəyərlərimizin bir hissəsi olan dinimizin, dilimizin qorunmasında icmaların rolunu qeyd edən A.Paşazadə müstəqillik illərində dini mühitin zənginləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü, bu sahəyə dövlət tərəfindən diqqət və qayğı göstərildiyini söyləyib.

QMİ-nin Qazılar Şurasının "Fətva"sı barədə məlumat verən Şeyxülislam Allahşükür Paşazadə "Aşura" günü uşaqların məscidlərə gəlməsinin məqsədəuyğun olmadığını deyib.

Lənkəran Rayon Ağsaqqallar Şurasının sədri Sərhad Məmmədov rayonda dini mərasimlərin icrası zamanı ənənəvilik və müasirlik prinsiplərinə, adət-ənənələrimizə ciddi riayət olunduğunu bildirib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Həmin gün Masallıda eyni mövzuda keçirilən seminar-müşavirədə rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov, DQİDK-nın sədri Mübariz Qurbanlı, QMİ-nin sədri Allahşükür Paşazadə, Masallı şəhərindəki "Cümə" məscidi dini icmasının sədri Mirqabil Hüseynov çıxış ediblər.

Müzakirələr zamanı dini mərasimlərin, o cümlədən "Aşura" mərasiminin icrası zamanı ənənəvilik və müasirlik prinsiplərinə riayət olunması ilə bağlı müxtəlif təkliflər səsləndirilib.

Seminar-müşavirənin sonunda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə Milli Məclisin deputatları Cavanşir Paşazadə və Nəriman Əliyev, Prezident Administrasiyasının məsul işçisi Dəyanət Abdullayev iştirak ediblər.

# XİN: "Dan Bilzeryanın qanunazidd əməlləri Azərbaycan ilə ABŞ arasında olan dostluq əlaqələrinin ruhuna ziddir"

## ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb

Amerika Birləşmiş Ştatlarının Dan Bilzeryan adlı vətəndaşının Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri, bu səfər əsnasında odlu silahlardan istifadə etməsi və digər qanunazidd əməlləri ilə əlaqədar ABŞ səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycanın Xarici İşlər Nazirliyinə çağırılıb və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ABŞ Dövlət Departamentinə ünvanlanan notası ona təqdim olunub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş əsnasında Dan Bilzeryan adlı birisinin Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında Qanunu və Miqrasiya Məcəlləsini pozaraq, müvafiq sənədlər təqdim etmədən və ölkəmizin müvafiq qurumları tərəfindən müəyyən edilməyən sərhəd-keçid məntəqələrindən kənar Ermənistan ərazisindən Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etdiyi, Xankəndi şəhəri və işğal olunmuş digər ərazilərdə olarkən qondarma rejimi təşviq etdiyi, qanunsuz yolla odlu silahlar əldə etdiyi və nümayişkarcasına və təxribatçı məqsədlərlə bu silahlardan Azərbaycan Silahlı Qüvvələrinin mövqeyinə atəş açdığı diqqətə çatdırılıb.

Həmçinin ABŞ vətəndaşı olan bu şəxsin kameralar qarşısında tərbiyəsiz və nadan açıqlamalarının Azərbaycan xalqının ləyaqətinə və mənəvi dəyərlərinə toxunduğu və onun bu kimi əməllərinin Azərbaycan ilə ABŞ arasında olan dostluq əlaqələrinin ruhuna zidd olduğu diqqətə çatdırılıb.

Onun bu kimi qanunsuz əməlləri ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işinin açıldığı və məsuliyyətə cəlb edilməsi üçün zəruri tədbirlərin görüldüyü vurğulanıb.

Azərbaycan tərəfdən ABŞ hökumətinin D.Bilzeryan adlı birisinin qanunsuz əməlləri ilə əlaqədar ölkəmizin narahatlığını ciddi surətdə nəzərə alacağı, öz vətəndaşlarının Azərbaycan Respublikasının milli qanunları, suverenliyi və ərazi bütövlüyünün, habelə beynəlxalq hüququn norma və prinsiplərinin pozulması hallarından çəkindirmək üçün zəruri tədbirlər görəcəyinin gözlənildiyi qeyd olunub.

# Azərbaycanın Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Rumıniyada bir sıra görüşlər keçirib

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 3-dən 5-dək Rumıniyada səfərdə olub.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Rumıniya Baş nazirinin strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə müavini Ana Birçal, xarici işlər naziri Teodor Meleşkanu ilə görüşlər keçirilib, nazir müavini Danuts Sebastian Nekulaesku ilə Azərbaycan və Rumıniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb.

Görüşlərdə iki ölkə arasında münasibətlərin dərin tarixi köklərə və əməkdaşlıq-tərəfdaşlıq ənənələrinə əsaslandığı, bu əlaqələrin bu gün də uğurla genişləndirilməsi və dərinləşdirilməsi məsələləri müzakirə olunub. Həmçinin ölkələrimizin ikitərəfli və çoxtərəfli müstəvidə də fəal və səmərəli əməkdaşlıq etdikləri bildirilib.

Söhbət zamanı Rumıniyanın Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk ölkələrdən olduğu qeyd edilib. Ötən dövrdə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasının hər iki ölkənin bu istiqamətdə əzmkar və səmərəli fəaliyyətinin nəticəsi olduğu vurğulanıb. Avropa İttifaqı-Azərbaycan əlaqələrinin genişləndirilməsi istiqamətində strateji tərəfdaş kimi Rumıniyanın mühüm rol oynadığı qeyd edilib. Gələn ilin ilk yarısında Rumıniyanın Avropa İttifaqı (Aİ) Şurasında sədrliyinin Aİ-Azərbaycan əlaqələrinin dərinləşməsi və möhkəmlənməsi baxımından faydalı olacağı ifadə edilib.

Hər iki ölkənin müstəqilliyinin 100, diplomatik əlaqələrin 25, strateji tərəfdaşlıq münasibətlərinin 10 illiyi barədə söhbət aparılıb, ölkələr arasında əldə edilmiş uğurların davamlı olacağı vurğulanıb.

Görüşlərdə iqtisadi əlaqələr də müzakirə edilib, qeyri-neft sektoru, kənd təsərrüfatı, infrastruktur, informasiya texnologiyaları, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün zəruri işlərin həyata keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulub. Münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunmasının Rumıniya tərəfindən həmişə dəstəklənəcəyi vurğulanıb.

Xələf Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ədalətli mövqeyinə görə Rumıniya tərəfinə minnətdarlığını bildirib.

Görüşlər çərçivəsində siyasi məsləhətləşmələrin mütəmadi olaraq keçirilməsinin vacibliyi vurğulanıb, Xarici İşlər nazirliklərinin idarələri arasında görüşlərin keçirilməsi, bu istiqamətdə Strategiya Planının üzərində çalışıldığı qeyd edilib. Rumıniyanın Baş naziri Viorika Dançilanın Azərbaycana səfərinin qısa müddət ərzində həyata keçirilməsinin nəzərdə tutulduğu bildirilib.

Siyasi məsləhətləşmələr zamanı iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub, Qara dəniz-Xəzər dənizi Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi və Rumıniyanın TAROM şirkəti tərəfindən Buxarest-Bakı istiqamətində uçuşların həyata keçirilməsi məsələləri müzakirə edilib.

Görüşlərdə, həmçinin regionda və dünyada baş verən siyasi hadisələrlə bağlı müzakirələr, hazırkı geosiyasi vəziyyətdə ölkələrimizin milli maraqlarına dair fikir mübadilələri də aparılıb.

Səfər çərçivəsində Buxarest şəhərində Tei parkındakı Heydər Əliyev xiyabanı ziyarət edilib, ulu öndərin abidəsi önünə gül dəstələri qoyulub.

# Rusiya və Azərbaycan arasında imzalanmış yeni sənədlər böyük perspektivlər vəd edir

**"Azərbaycan Rusiya üçün geoiqtisadi əhəmiyyətə malik ölkədir və respublikamızın yaxın qonşu ölkələrlə yüksək siyasi, iqtisadi münasibətlərinin olması qarşı tərəf üçün cəlbedicidir. Bakı-Tbilisi-Qars dəmir yolu, eyni zamanda regionda "Şimal-Cənub", "Şərq-Qərb" dəhlizlərinin formalaşması qonşu ölkənin yeni bazarlara çıxışı baxımından mühüm əhəmiyyət kəsb edir".**

**Bu sözləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü *Tahir Mirkişili* Prezident İlham Əliyevin Soçi səfərinin nəticələrini dəyərləndirərkən qəzetimizə verdiyi açıqlamasında deyib.**





## İki ölkə arasındakı iqtisadi əlaqələr daha da genişlənəcək

Azərbaycan-Rusiya iqtisadi münasibətlərinin daim inkişaf etdiyini vurğulayan deputatın sözlərinə görə, Rusiya ölkəmiz üçün böyük bazardır: "Rusiyanın iri həcmdə bazara sahib olması Azərbaycan sahibkarları və iqtisadiyyatı üçün mühüm rol oynayır. Hökumətimiz iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı yönündə daim çalışıb".

T.Mirkişili qeyd edib ki, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsində Azərbaycan-Rusiya birgə əməkdaşlığı da əslində konstruktiv məqsədlərə xidmət edib.

Deputat hesab edir ki, Rusiya Azərbaycan üçün iqtisadi maraqlar kəsb edir və bu gün Rusiyanın Avropa İttifaqı, ABŞ tərəfindən sanksiyalara məruz qaldığı nəzərə alınsa, indi bu ölkənin iqtisadiyyatı üçün yeni inkişaf istiqamətlərinin tapılması, yeni bazarlara çıxış siyasi əhəmiyyət kəsb edir: "Türkiyə, İran, Şərq ölkələri ilə iqtisadi münasibətlərində Azərbaycanın yaratdığı infrastruktur imkanları və bu ölkələrlə uğurlu siyasi və iqtisadi münasibətləri Rusiya üçün maraqlıdır".

Tahir Mirkişili onu da vurğulayıb ki, Azərbaycan qazı 2020-ci ildə Avropaya çatdırılacaq. Avropa bazarlarına hər iki ölkənin qaz ixracı imkanları Rusiyanı Azərbaycanla bu mühüm bazarda əməkdaşlıq etməyə sövq edir və tərəflərin bu yöndə konstruktiv şəkildə çalışması hər iki ölkənin iqtisadi maraqlarına uyğundur: "Bu gün ölkələrimiz arasındakı iqtisadi əlaqələr bərabərhüquqlu, qarşılıqlı maraqlara xidmət edən yaradıcı, geoiqtisadi əhəmiyyət kəsb edir. Bu da hər iki dövlətin iqtisadiyyatının böyüməsi, inkişafı və dayanıqlı olması üçün mühüm amildir. İmzalanan çoxsaylı və çoxsahəli müqavilələr isə tərəflərə iqtisadi cəhətdən mühüm perspektivlər vəd edir".

## Rusiya Azərbaycan iqtisadiyyatına sərmayə yönəldən əsas ölkələrdəndir

*İqtisadçı-ekspert* ***Vüqar Bayramov***un fikrincə, Rusiya və Azərbaycan arasında imzalanmış yeni sənədlər, eləcə də strateji əməkdaşlığın gücləndirilməsi ilə bağlı addımlar onu deməyə əsas verir ki, bu ölkə ilə həm dövlətlərarası, həm də şirkətlərarası münasibətlər daha da inkişaf edəcək.

İqtisadçı-ekspert bildirib ki, Rusiya Azərbaycan üçün regionda iqtisadi layihələrin reallaşdırılması baxımından strateji müttəfiqlərdən biridir: "Ölkəmizin 1,5 milyard dollardan çox qeyri-neft ixracının 34 faizi Rusiyanın payına düşür. Bu isə o deməkdir ki, dövlətlərimiz arasında qeyri-neft ixracı təxminən yarım milyard dollardır. Respublikamızın ixrac etdiyi aqrar məhsulların 90 faizdən çoxu Rusiya bazarına göndərilir. Nəticədə şimal qonşumuz qeyri-neft, eləcə də aqrar məhsulların ixracında əsas tərəfdaş rolunu qoruyub saxlamaqdadır. Azərbaycanın Rusiyada böyük həcmdə sərmayəsi var. Həmin ölkə də bizim iqtisadiyyatımıza böyük miqdarda sərmayə yönəldir. Bundan başqa, prezidentlərin sonuncu görüşündə SOCAR-la müvafiq müqavilənin imzalanması strateji əməkdaşlığın bütün istiqamətlərdə inkişaf etməsindən xəbər verir".

V.Bayramov əlavə edib ki, Azərbaycan Prezidentinin Rusiyaya bu səfəri ölkəmizin inkişaf etmiş Avropa dövlətləri və Rusiya ilə bərabərsəviyyəli strateji əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu göstərir.

## İki ölkə arasında ixrac-idxal əməliyyatları daha da sürətlənəcək

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin maliyyə analitiki* ***Nicat Hacızadə***nin fikrincə, Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri iki ölkə arasındakı iqtisadi münasibətləri daha da dərinləşdirəcək.

Azərbaycanın Rusiyanın Cənubi Qafqazda həm iqtisadi, həm də ticari nöqteyi cəhətdən ən böyük tərəfdaşı olduğunu xatırladan N.Hacızadə bildirib ki, baş tutan bu səfər ölkələrimiz arasında iqtisadi potensialı daha da artıracaq, iki ölkə arasındakı ixrac-idxal əməliyyatlarını sürətləndirəcək: "Səfər çərçivəsində ixrac və idxal sahəsində ikili sənədləşmə proseslərinin daha da sadələşdirilməsi, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində təcrübə mübadiləsinin təşkil edilməsi və sözügedən istiqamətlər üzrə ticarət münasibətlərinin daha da inkişaf etdirilməsi, o cümlədən nəqliyyat və yükdaşımalar sahəsində infrastrukturun müasirləşdirilməsi, qarşılıqlı daşımaların artırılması ilə bağlı rəsmi sənədlər imzalandı. Bütün bunlar Prezident İlham Əliyevin Rusiya ilə iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində düşünülmüş siyasətinin nəticəsidir. Məhz dövlət başçısının rəhbərliyi ilə Rusiya ilə iqtisadi münasibətlər son 15 ildə ən yüksək həddə çatıb".

Ekspert əlavə edib ki, "Bir pəncərə" İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların 70 faizi Rusiyaya mal ixrac edir. Bura kənd təsərrüfatı, xüsusilə meyvə-tərəvəz, sənaye və tikinti məhsulları da daxildir. Habelə azexport.az portalına gələn sifarişlərin mütləq əksəriyyətini Rusiya istiqaməti təşkil edir. İxrac-idxal əməliyyatlarının daha da sürətlə getməsinin əsas səbəblərindən biri də ölkələrimiz arasında preferensiyanın olmasıdır. Sözügedən azad ticarət zəmin yaradır ki, Azərbaycan və Rusiya mənşəli məhsullar hər iki ölkənin ərazisinə daxil olarkən rüsum ödəməsinlər. Rüsumların məhsulun maya dəyərinə təsir etdiyini nəzərə alsaq, bu hər iki ölkənin sahibkarları üçün rəqabətqabiliyyətli fəaliyyət mühiti yaradacaq.

***"Azərbaycan"***

# Təhsilimizin artan balı

## Müstəqillik tarixində rekord tələbə sayı - 40806

*Əvvəli 1-ci səh.*

Bu faiz təkcə tələbələrin ümumi sayı kimi deyil, həm də ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəriciləri ilə həmahəngdir.

İkinci cədvəldən də aydın göründüyü kimi, son 5 ildə I-IV ixtisas qruplarının hər biri üzrə və bütövlükdə tələbə qəbulunun keyfiyyət göstəricilərində nəzərəçarpacaq dərəcədə (18.2 faiz) artım müşahidə olunur. Qeyd edək ki, keyfiyyət qöstəricisi qəbul imtahanlarında müsabiqə şərtlərini ödəyən abituriyentlərin sayına görə müəyyənləşdirilir.

Bu il qəbul imtahanlarında I-IV ixtisas qrupları üzrə 200-dən yuxarı bal toplayanların sayı **38 201** nəfərdir. Bu da imtahan iştirakçılarının **52.9 faizi deməkdir. Deməli, qəbulun ekvator xətti müsbət dinamika nümayiş etdirir.**

Son 5 tədris ilində ali təhsil müəssisələrinə tələbə qəbulunun ixtisas qrupları üzrə və bütövlükdə keyfiyyət göstəriciləri




Qeyd: - Keyfiyyət göstəricisi DİM-in qəbul imtahanlarında müsabiqə şərtlərini ödəyən abituriyentlərin nəticələrinə görə müəyyənləşdirilir

*Cədvəl 2.*

### 300-dən 700-ə davamlı artım...

**Son 5 ildə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26.5 faiz, 400 baldan çox toplayanların sayı 35.1 faiz, 500 baldan çox toplayanların sayı 51.5 faiz, 600 baldan çox toplayanların sayı isə 81.3 faiz artıb.** Bu isə ali təhsil müəssisələrinin, eləcə də qəbul olunanların orta bal göstəricilərinin artması deməkdir.

**Bu ilin qəbul imtahanlarında 3127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərib. Həmin göstərici ötən il 2472 nəfər, 2016-cı ildə 2281 nəfər, 2015-ci ildə 2094 nəfər, 2014-cü ildə isə 1725 nəfər olub. Bu tədris ilində 29 nəfər abituriyent 700 bal toplayıb. Ötən il bu göstərici 15 nəfər idi.**

**Bu dinamikanı həm də son 5 ildə təhsil sistemimizdə aparılan islahatların nəticəsi kimi xarakterizə etmək olar. Belə ki, sözün həqiqi mənasında, son illər ərzində təhsil sistemimiz kifayət qədər dəyişib, strateji hədəflər müəyyən olunub və XXI əsrin reallığı tam dərk olunub.**

2014/2015-ci tədris ilinə nisbətən 2015-2018-ci illərdə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərinin artım dinamikası




*Cədvəl 3.*

### Gələcəyin inkişaf motoru - İKT

Sirr deyil ki, İKT ixtisaslarına qəbulun keyfiyyəti həm də hər bir ölkənin gələcək inkişafının təminatıdır. Əbəs yerə demirlər ki, 4-cü sənaye inqilabına hazır olmayanlar inkişafın yüksək fazasına əlvida deyirlər. Bəs ölkəmizdə İKT ixtisaslarına tələbə qəbulu keyfiyyət fərqi yarada bilirmi?

2018-2019-cu tədris ili üçün 5 İKT ixtisası üzrə tələbə qəbulu proqnozu ümumi tələbə qəbulunun 5.4 faizini təşkil edib. İKT ixtisaslarına ("Kompüter elmləri", "Kompüter mühəndisliyi", "İnformasiya texnologiyaları", "İnformasiya təhlükəsizliyi") tələbə qəbulu proqnozu ötən illə müqayisədə **40.2% (707 nəfər)** artıb. Belə ki, bu ixtisaslara qəbul 1759-dan 2466 nəfərə yüksəlib.

Bununla yanaşı, "Pedaqoji" ixtisas qrupuna aid olan "İnformatika müəllimliyi" və "Riyaziyyat və informatika müəllimliyi" ixtisasları üzrə tələbə qəbulu proqnozu da artıb. Belə ki, 2017-2018-ci tədris ilinə nisbətən cari ildə bu göstərici 16.6 faiz artaraq 1055 yer təşkil edib.

İKT ixtisasları üzrə tədrisin ingilis dilində aparıldığı tələbə qəbulu proqnozu da ötən illə müqayisədə 24 faiz artaraq 465 nəfər təşkil edib.Eyni zamanda ali təhsilin magistratura səviyyəsinə İKT ixtisasları üzrə tələbə qəbulu proqnozunda ötən ilə nisbətən 34.1 faiz artım müşahidə olunub.

Maraqlı fakt həm də ondan ibarətdir ki, 2007-2015-ci illər "Xaricdə təhsil üzrə Dövlət Proqramı" çərçivəsində İKT ixtisasları üzrə 369 nəfər dünyanın aparıcı universitetlərində təhsil almaq hüququ qazanıb. Onlardan 201nəfəri məzun olub (14 nəfər iki dəfə təqaüd almaq hüququ qazanıb). Məzunlardan 118 nəfər magistratura, 94 nəfər bakalavriat, 3 nəfər doktorantura səviyyəsində təhsil alıb. 12 nəfər isə Azərbaycanın aparıcı universitetlərində akademik fəaliyyətlə məşğuldur.

### Təhsilin qlobal dili

Dünyada müxtəlif dillərdə ünsiyyət bacarıqları təkcə gündəlik münasibətlərdə deyil, eyni zamanda təhsil-elm müstəvisində də sürətlə genişlənir. Artıq ən azı bilinqual(ikidilli) mühit qlobal təhsil məkanının vazgeçilməz üstünlüyüdür.

2016-2018-ci illərdə ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına tələbə qəbulunun nəticələrinə dair məlumat




*Cədvəl 4.*

Xüsusilə də ingils dilinin təhsil sistemində təsir gücü günbəgün artır. Bəs Azərbaycanın ali təhsil müəssisələrinə qəbulda tədris ingilis dillində aparılan ixtisaslarda vəziyyət necədir? Yerli və beynəlxalq əmək bazarının tələbləri nəzərə alınmaqla ölkəmizin ali təhsil müəssisələrinin tədrisi ingilis dilində aparılan ixtisasların sayı 44-dən 57-yə, qəbul yerlərinin sayı isə ötən illə müqayisədə 15 faiz artıb.

Son 3 tədris ilində ingilis dilində tədris olunan ixtisaslara tələbə qəbulunda proqnoz yerlərinin də sayı artıb və xüsusilə də bu ilin tələbə qəbulunda, demək olar ki, məzunlar 100 faizlik nəticə ilə xarici dildə tədrisi seçiblər.

### Magistratura cinsə baxmır

Son iki ildə ali təhsil müəssisələri və AMEA-nın magistraturalarına keçirilən qəbul imtahanları üzrə nəticələr müsbətdir.

Qeyd edək ki, ötən ildən başlayaraq magistratura təhsili almaq istəyənlərin sayında kəskin artım müşahidə olunur. Bu artım əsasən oğlanların hesabınadır və təbii ki, cənab Prezidentin sərəncamı ilə 2016-cı ildə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklə bilavasitə bağlıdır.

### Və nəticələr sevindiricidir

Gəlin möhlət hüququnun verilməsindən sonrakı rəqəmlərə baxaq. Belə ki, 2017-2018-ci tədris ili üçün magistraturaya aparılan qəbulun nəticələrinə görə qəbul olunan 6361 magistrdən 3590 nəfəri qız, 2771 nəfəri isə oğlan olub.

Bu, oğlanların sayında əvvəlki illə müqayisədə 73.9 faiz artım deməkdir. Eləcə də cari ildə faktiki qəbul 6396 nəfər olub. Onlardan 3242 nəfəri qızdısa, 3154 nəfəri oğlanlardır. Yəni, oğlanlarla qızlar arasındakı kəskin fərq nəinki azalıb, demək olar ki bərabərləşib.

### Təhsilin yeni ili

Adətən, ilin nəticələri həm də təhlil tərkib üçün yeni fürsətlər yaradır. Ələlxüsus, davamlı artım dinamikasını saxlamaq daha uzağa baxmağı tələb edir. Necə dəyərlər, tələbə doğru. Bir də ki, universitetin qarşısında duran vəzifə təkcə qəbulun nəticəsi ilə bitmir. Bu, sadəcə olaraq, başlanğıcıdır. Təhsildə nəticə qazanmaq həm də yeni yanaşmaların davamlı tətbiqidir. Bir sözlə, yaxşı material başlanğıc üçün əla imkandır. Bu imkanları dəyərləndirmək isə ali təhsil müəssisələrinin ixtiyarındadır. Yeni tədris ilinə isə 10 gündən də az vaxt qalıb.

Gözləyək...

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ötən tədris ilinin yekunları uğurlu olub

2017-2018-ci dərs ilində Tərtər rayonunda 47 ümumtəhsil məktəbi fəaliyyət göstərib, 10 min 342 şagirdin təlim-tərbiyəsi ilə 1335 nəfər müəllim məşğul olub. Əvvəlki illərdə olduğu kimi, ötən tədris ilində də rayonun şagirdləri respublika fənn olimpiadalarında, müxtəlif yarış və müsabiqələrdə fəal iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, bu barədə Tərtər şəhərində keçirilən təhsil işçilərinin ənənəvi sentyabr konfransında bəhs edilib. Konfransda ötən tədris ilində görülən işlər ətraflı təhlil edilib, qarşıda duran vəzifələrdən bəhs olunub. Diqqətə çatdırılıb ki, orta ümumtəhsil məktəblərini bitirən 588 nəfər məzundan 363 nəfəri ali məktəblərə qəbul olmaq üçün sənəd verib, 224 nəfər ali, 108 nəfər isə orta-ixtisas məktəblərinə qəbul olub. Gənclərdən 19 nəfəri 500-600 arası, 10 nəfər isə 600-dən yuxarı bal toplayıb.

Bildirilib ki, respublikamızın hər yerində olduğu kimi, Tərtər rayonunda da təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər görülür, yeni məktəblər inşa edilir, mövcud məktəblər təmir olunur və ya yenidən qurulur. Ötən tədris ilində Tərtər şəhər 6 nömrəli tam orta və Qazyan kənd ümumi orta məktəbləri əsaslı təmir edilib, Bayandur, Poladlı kəndlərində modul tipli məktəblər tikilib. Seydimli kənd tam orta məktəbinin əlavə korpusu və Qaradağlı kənd tam orta məktəbinin bir korpusu əsaslı təmir olunub. Hazırda Zolgəran kənd ümumi orta və Kovdadıq kənd ibtidai məktəbləri üçün modul tipli məktəblərin tikintisinə hazırlıq işləri görülür, Buruc kənd tam orta məktəbi cari təmir edilir. Rayonun digər məktəblərində də daxili imkanlar hesabına təmir işləri aparılaraq səliqə-sahman yaradılıb, yaşıllıqlar salınıb.

## Azərbaycan Parlamenti - 100





# Müsəlman Şərqinin ilk demokratik parlamenti

**Müsəlman Şərqinin ilk demokratik, hüquqi respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq mövcudluğuna rəğmən, xalqın milli mənlik şüurunu özünə qaytarmış, müqəddəratını müstəqil şəkildə təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmiş, həyata keçirdiyi qanunverici islahatlarla dövlətçiliyin sütunlarının möhkəmlənməsinə çalışmışdır. Qısa müddətdə cümhuriyyətin mühüm dövlətçilik atributları, ölkə hakimiyyətinin bütün qolları formalaşdırılmış, o cümlədən ilk parlament yaradılmışdır.**

Bütün bunlar nəticə etibarilə hüquqi dövlətlər üçün səciyyəvi olan hakimiyyət bölgüsü prinsiplərinin tətbiqinə, hakimiyyətin üç əsas qolunun - qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına xidmət edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti bütün fəaliyyətini ölkənin sosial-iqtisadi, maliyyə problemlərinin həllinə, ölkənin ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumağa, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirməyə, Azərbaycanın beynəlxalq miqyasda tanınmasına, onun xarici ölkələrlə, ilk növbədə yaxın qonşuları ilə çoxşaxəli əlaqələrinin genişlənməsinə yönəltmişdi.

Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, cümhuriyyət parlamenti özünün həyatiliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etmişdi. Bu müddətdə "Məclisi-Məbusan"ın 145 iclası keçirilmiş, ilk iclas 1918-ci il dekabrın 7-də, son iclas 1920-ci il aprelin 27-də baş tutmuşdu. Bu iclaslardan 15-i yetərsayın olmaması üzündən keçirilməmiş, 130 iclasda ölkənin daxili, xarici siyasəti, iqtisadiyyat, maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi, qəbulu, ordu quruculuğu və digər məsələlər müzakirə edilmişdi. Fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını təsdiq edilmişdi. Gənc müstəqil respublikada cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən mükəmməl qanunlar özünün mütərəqqiliyi, demokratik ruhlu olması ilə fərqlənirdi.

Xalq Cümhuriyyəti parlamenti və hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində də böyük iş aparırdı. Bununla bağlı olaraq parlament 1918-ci il dekabrın 28-də parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etdi. Ə.M.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail olsa da, bolşevik Rusiyasının Azərbaycanı işğal etməsilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı.

Sovet dövründə digər sosialist respublikalarında olduğu kimi, Azərbaycanda da parlamentin qəbul etdiyi qanun və qərarlar Kommunist Partiyasının siyasi-iqtisadi və ideoloji məqsədlərini həyata keçirməyə xidmət edirdi. XX əsrin 50-60-cı illərində Azərbaycan SSR-də milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atılsa da, bu sahədə məqsədyönlü iş yalnız böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı. Azərbaycan SSR-in rəhbəri kimi Heydər Əliyev ilk gündən böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində qəbul etdiyi səhv qərarlar üzündən parlament xalqın dəstəyindən tamamilə məhrum olmuşdu. Vəziyyətin getdikcə gərginləşdiyi bir vaxtda iqtidarla müxalifət arasındakı sövdələşmənin nəticəsi olaraq Azərbaycan Ali Sovetinin səlahiyyətləri bərabərlik əsasında formalaşdırılmış 50 nəfərlik Milli Şuraya verilmiş, digər deputatların hüquqları isə kobudcasına pozulmuşdu. O zaman Ali Sovetin qeyri-demokratik addımlarından biri də parlamentdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin siyasi fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı qərarın qəbulu idi.

Ulu öndər Heydər Əliyevin o illərdə Azərbaycan Ali Sovetinin iclaslarındakı alovlu çıxışları cəmiyyətdə böyük əks-səda doğurur, ölkə rəhbərliyinin iç üzünü ifşa edir və xalqı həmrəyliyə çağırırdı. Bu isə xalqın dəstəyindən məhrum olmuş hakimiyyəti və Ali Sovet rəhbərliyini heç cür qane edə bilməzdi. Ona görə Ali Sovet tərəfindən Naxçıvan MR Ali Məclis sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydası ləğv edildi.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə parlament üzərinə düşən vəzifələri yerinə yetirə bilmirdi - ölkədəki xaos qanunverici orqandan da yan ötməmişdi. Vəziyyətin son dərəcə ümidsizləşdiyi bu məqamda xalq ən doğru seçimini edərək ulu öndər Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etdi. Bu çağırışa biganə qala bilməyən ulu öndər Bakıya gələrək çox qısa müddətdə vətəndaş müharibəsinin qarşısını aldı, ölkəni fəlakət və məhv olmaqdan qurtardı. Xalqın və dövlətin ən ağır, taleyüklü məqamında Ali Sovetin sədri kimi məsul vəzifəni üzərinə götürərək şərəflə daşıdı, bir-birindən çətin və mürəkkəb problemləri böyük ustalıq və məharətlə yoluna qoydu.

Ulu öndər Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi ali qanunvericilik orqanının fəaliyyətində və xalqın ona münasibətində böyük dəyişiklik yaratdı. 1993-cü ilin iyun hadisələrinin araşdırılması və mənfi nəticələrinin aradan qaldırılması yönümündə görülən işlərin aşkarlıq şəraitində aparılması bütün xalqın diqqətini ali quruma yönəltdi. Öz fəaliyyətində daim aşkarlıq prinsipini rəhbər tutan Heydər Əliyev özü ilə bərabər parlamentə böyük bir işgüzarlıq, siyasi mədəniyyət gətirdi.

Ümummilli lider Heydər Əliyevin parlament sədri kimi fəaliyyəti Azərbaycanın qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırdı, onun təşəkkülünə, ölkənin ictimai-siyasi həyatının sabitləşməsinə zəmin yaratdı. Ulu öndərin iclası aparmaq tərzi, öz təkliflərini dəqiq əsaslandırması, deputatların çıxışlarının məğzini tutmaq bacarığı, dəyərli fikirləri ümumiləşdirərək müzakirəni müsbət axara yönəltmək qabiliyyəti özlüyündə yeni parlamentarizm məktəbi idi.

Ulu öndər 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Azərbaycan Ali Sovetinin sədri vəzifəsində çalışmış, xalqın iradəsi ilə prezident seçildikdən sonra müstəqil dövlətin digər təsisatları ilə yanaşı, peşəkar parlamentinin formalaşdırılması işində də həlledici rol oynamışdı. Beləliklə, Heydər Əliyev həm də müstəqil Azərbaycan dövlətinin parlamentinin memarı və yaradıcısı missiyasını yerinə yetirməli olmuşdur.

Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası və demokratik əsaslarla seçilmiş ilk parlamenti ölkəmizin siyasi tarixində dirçəliş və inkişaf dövrünün başlanğıcı olmuşdur. Birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi Konstitusiya ilə müəyyənləşdirilmiş səlahiyyətlərini uğurla yerinə yetirmiş, fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurmuşdu. İlk çağırış parlament qarşısına qoyduğu hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycanın Avropa xalqları ailəsinə inteqrasiyası, bu məqsədlə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsi üçün hüquqi bazanın yaradılması, möhkəmləndirilməsi və təkmilləşdirilməsi kimi vəzifələri uğurla yerinə yetirmişdi.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, parlament Ermənistanın ölkəmizə təcavüzü, Azərbaycan torpaqlarının beşdə bir hissəsini işğal altında saxlaması, bir milyondan artıq vətəndaşımızı yerindən, yurdundan didərgin salması barədə həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızın haqq işinin dünya miqyasında dəstəklənməsinə nail olmaq üçün mümkün olan bütün tədbirləri görmüş, müstəqil dövlətimizin xarici əlaqələrinin inkişafına və möhkəmləndirilməsinə dəyərli töhfələr vermişdir.

2000-ci ildə keçirilmiş ikinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ölkəmizdə demokratiyanın inkişafı, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçicilərin yüksək fəallığı şəraitində ikinci çağırış Milli Məclisə respublikamızda fəaliyyət göstərən 9 siyasi partiyanın təmsilçiləri seçilmiş, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası böyük qələbə qazanaraq deputat mandatlarının əksəriyyətini əldə etmişdir.

İkinci çağırış Azərbaycanın Milli Məclisi fəaliyyəti dövründə Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvü seçilmişdir. 2001-ci il yanvarın 25-də ulu öndər Heydər Əliyevin iştirakı ilə Strasburqda Avropa Şurasının binası önündə müstəqil dövlətimizin üçrəngli bayrağının ucaldılması Azərbaycanın Avropa ailəsinə qovuşduğunu bütün dünyaya nümayiş etdirmişdir. Azərbaycan parlamentini Avropa Şurasının Parlament Assambleyasında təmsil etmək üçün Milli Məclisdə daimi nümayəndə heyəti yaradıldı. Daimi nümayəndə heyətinin ilk rəhbəri cənab İlham Əliyevin başçılığı ilə Azərbaycanın parlamentariləri AŞ PA-nın iclaslarında böyük fəallıq nümayiş etdirmiş, ölkəmizə mühüm diplomatik nailiyyətlər qazandırmışdır.

2005, 2010 və 2015-ci illərdə keçirilmiş üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər xalqın Heydər Əliyevin siyasi kursuna inamını, hörmət və ehtiramını növbəti dəfə aydın şəkildə təcəssüm etdirmişdir. Hər üç seçkidə Yeni Azərbaycan Partiyasının uğur qazanması, ən çox deputat mandatına layiq görülməsi, həm bu hörmət və ehtiramın nəticəsi, həm də Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasətin bəhrələrinin, nəticələrinin insanlar tərəfindən yüksək qiymətləndirilməsi olmuşdur.

2015-ci ildə keçirilmiş beşinci çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmiş, deputatları təbrik etmiş, onlara gələcək qanunvericilik fəaliyyətlərində uğurlar arzulamışdır. Prezident demokratik parlament seçkilərinin ölkəmizin demokratik inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyini qeyd etmişdir.

Bu gün parlamentdə həyata vəsiqə alan qanunlar hüquqi bazanı möhkəmləndirməklə yanaşı, Azərbaycan hakimiyyətinin kompleks inkişafa dair həyata keçirdiyi siyasi kursa dəstək verir. Qətiyyətlə demək olar ki, Azərbaycan Milli Məclisinin son illərdəki fəaliyyəti müsbət və uğurlu olmuşdur. Ötən illərdə parlamentdə yüzlərə qanun və qərar, həmçinin müxtəlif qanunlara əlavə və dəyişikliklər qəbul olunmuş, beynəlxalq müqavilə və konvensiyalar ratifikasiya edilmiş, bir sözlə, ölkəmizin qanunvericilik bazası daha da təkmilləşdirilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, Milli Məclis 2007, 2009, 2013 və 2016-cı illərdə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə amnistiya aktları qəbul etmişdir.



*Bu günlərdə yaranmasının 100-cü ildönümünü qeyd edən Azərbaycan Parlamenti Heydər Əliyevin ideya və tövsiyələrinə sadiq qalaraq hər bir məsələdə məhz ölkə vətəndaşlarının mənafeyini uca tutur, yeni qanunların insanların maraqlarına maksimum dərəcədə cavab verməsinə çalışır. Əminliklə demək olar ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasətə səmərəli fəaliyyəti ilə dəstək verən Azərbaycan Respublikasının Milli Məclisi qarşıdakı müddətdə də ölkənin hərtərəfli tərəqqisi naminə bütün səy və imkanlarını səfərbər edəcəkdir.*

***Şahsultan HƏSƏNOV,***
***Rusiya Federasiyasının Prezidenti yanında İdarəçilik və Dövlət Qulluğu Akademiyasının magistri***

# Heydər Əliyev Fondunun dəstəyi ilə sahibsiz itlərlə bağlı görülən işlərin təkmilləşdirilməsinə dair layihənin icrasına başlanılıb



Sentyabrın 5-də Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə bağlı görülən işlərin təkmilləşdirilməsinə dair birgə layihəsinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, layihə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilir və bu sahədə işlərə may ayından etibarən başlanılıb. Layihə sakinlərin təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi, həmçinin cəmiyyətin onlara qarşı münasibətinin dəyişdirilməsi məqsədi daşıyır.

Sahibsiz itlərlə bağlı mövcud vəziyyət, problemin təsviri, layihə çərçivəsində görüləcək işlər, təkliflər, atılan addımlar barədə məlumat verən Heydər Əliyev Fondunun layihə koordinatoru Sabiq Abdullayev bildirib ki, Balaxanı qəsəbəsindəki sahibsiz itlər üçün sığınacaq mərkəzində yenidənqurma işləri həyata keçiriləcək. Burada beynəlxalq norma və tələblərə uyğun qəfəslər qurulacaq. Eyni zamanda, mərkəz müayinələrin aparılması, sterilizasiya, müalicə və heyvanlara mikroçipin yerləşdirilməsi üçün müasir tibbi avadanlıqlar və preparatlarla təchiz olunacaq.

Layihə müddətində əhalinin məlumatlandırılması məqsədilə təbliğat aksiyalarının keçirilməsi planlaşdırılır. Sosial videoçarxların, animasiya filmlərinin çəkilişi, veb-saytın yaradılması, ictimai tədbirlər, sərgilər və s. keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, problemin həllinə dair əhalinin mövqeyinin öyrənilməsi məqsədilə sosial sorğu da keçiriləcək.

S.Abdullayev sahibsiz itlərin tutulduqdan sonra mərkəzə yerləşdiriləcəyini, burada müəyyən müddət ərzində saxlanılacağını, müayinədən keçiriləcəyini, sterilizasiya və peyvənd olunacağını, onlara mikroçip yerləşdiriləcəyini də diqqətə çatdırıb. Bu mərhələlərin ardınca müəyyən müddət keçdikdən (karantindən) sonra sağlam sahibsiz itlər sərbəst buraxılacaq. Mərkəzin gələcək fəaliyyəti sahibsiz itlərlə bağlı aparılan monitorinqə əsaslanacaq. Gələcəkdə mərkəzə gün ərzində 30-dan 50-dək sahibsiz itlərin tutulub gətirilməsi planlaşdırılır. Balaxanı qəsəbəsindəki sahibsiz itlər üçün sığınacaq mərkəzində yenidənqurma işləri başlanıldığından hazırda burada olan heyvanlar müvəqqəti olaraq IDEA Heyvanlara Qayğı Mərkəzində saxlanılacaq.

Ağır yaralı, müalicələri mümkün olmayan, əhali üçün aqressiv və təhlükəli olan sahibsiz itlərin isə sivil qaydada zərərsizləşdiriləcəyi nəzərdə tutulur.

"Yeni mərkəzdə sahibsiz itlərin sterilizasiyası və peyvəndlənməsini həyata keçirəcək baytar həkimlər, onların tutulmasını təşkil edəcək xüsusi mütəxəssislər çalışacaqlar. Mərkəzdə sahibsiz itlər üçün təcili tibbi yardım fəaliyyət göstərəcək. Həmçinin küçə itlərinin aşkar edilməsi və onlara müvafiq yardım göstərilməsi məqsədilə "Qaynar xətt" yaradılacaq. Sahibsiz itlərin ovlanması ilə məşğul olan briqada xüsusi avadanlıqlarla təmin ediləcək. Mərkəzdə peyvənd və sterilizasiya olunan itlər üçün xüsusi zonanın yaradılması nəzərdə tutulub. Buradan arzu edən hər kəs onları himayəyə götürə biləcək. Baytar həkimlər heyvanlara qayğı və peyvənd barədə onları sahiblənən şəxslərə məlumat verəcəklər.

Mərkəzə daxil olan bütün itlərlə bağlı məlumatlar - tutulduğu tarix və ünvan, heyvanın vəziyyəti, həyata keçirilmiş tibbi yardımlar və mikroçipin nömrəsi xüsusi informasiya bazasına daxil ediləcək. Sərbəst buraxılan və sahiblərini tapan itlər barədə də bazaya müvafiq məlumatlar yerləşdiriləcək", - deyə S.Abdullayev vurğulayıb.

Paytaxtda həyata keçirilən pilot layihənin gələcəkdə regionları da əhatə etməsi nəzərdə tutulur. Üç il müddətində davam etdirilməsi planlaşdırılan layihə çərçivəsində, həmçinin yeni qanunvericilik də hazırlanacaq.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı aparatının şəhər təsərrüfatı, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Xalid Ələkbərov layihənin əhəmiyyətindən danışıb və bu sahədə öz dəstəklərini əsirgəməyəcəklərini deyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin departament direktoru Hikmət Əlizadə pilot layihəni yüksək qiymətləndirib. O, sahibsiz itlərlə bağlı problemin humanist üsullarla həllinin vacibliyindən danışıb. Departament direktoru məsələnin həllində məişət tullantılarının idarə olunmasının əhəmiyyətini də vurğulayıb.

Sonda kütləvi informasiya nümayəndələrinin sualları cavablandırılıb.

## "Ümid" yatağında yeni quyu istismara veriləcək

"Ümid" qaz-kondensat yatağındakı 16 nömrəli quyunun bu ilin oktyabr ayında istismara verilməsi nəzərdə tutulur. Bu barədə SOCAR-ın 2017-ci il üzrə illik hesabatında bildirilir.

Hesabatda qeyd edilir ki, 2012-ci ildə "Ümid" qaz-kondensat yatağı sənaye işlənməsinə daxil edilib. Bu ilin əvvəlinə yataqdan 265,3 min ton kondensat və 1 milyard 666,3 milyon kubmetr qaz hasil olunub. Yataqda 2 istismar quyusu fəaliyyət göstərir (12 nömrəli istismar quyusu təmirə dayanıb) və bu quyulardan gündə 1250 min kubmetr qaz, 200 ton kondensat hasil edilir. Hazırda "Ümid" yatağındakı 16 nömrəli istismar quyusunda qazma işləri aparılır.

## "Şahdəniz" layihəsi üzrə gəlirlər açıqlanıb

2007-ci ildən cari il sentyabr ayının 1-dək Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə qazın satışından əldə olunan ümumi gəlirləri 2 milyard 506 milyon ABŞ dolları olub.

Bu barədə ARDNF-in ictimaiyyətlə əlaqələr departamentindən bildirilib.

Xatırladaq ki, cari ilin əvvəlində "Şahdəniz" layihəsi çərçivəsində xarici sərmayəçilər tərəfindən Neft Fonduna 108 milyon dollar əlavə bonus ödənilib.

***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin yeni rekordu

**Müasir tələblərə cavab verən keyfiyyətli təhsil sisteminin yaradılması Azərbaycanda ardıcıl şəkildə həyata keçirilən sosialyönümlü islahatların başlıca hədəfinə çevrilib. Təhsil ümumən ölkənin, xalqın müqəddəratı ilə bağlı strateji sahə olduğundan ölkə rəhbərliyi son 15 ildə bu sferada qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Son illər ölkənin təhsil sistemində müşahidə edilməkdə olan uğurlar hər kəsə məlumdur.**

BAKI ALİ NEFT MƏKTƏBİ
BAKU HIGHER OIL SCHOOL

Mövcud inkişafda özünəməxsus xidmətləri olan ali təhsil müəssisələri arasında Bakı Ali Neft Məktəbi də seçilir. Əsas məqsədi ingilis dilində təhsil almış yüksək ixtisaslı mühəndis kadrlar hazırlamaq olan Bakı Ali Neft Məktəbi (BANM) Azərbaycan təhsili tarixində rekordu yeniləyib. BANM-dan verilən məlumata görə, Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən I ixtisas qrupu üzrə keçirilən qəbul imtahanlarının hər iki mərhələsi üzrə ümumi 13 nəfər 700 bal toplayıb və onların hamısı Bakı Ali Neft Məktəbini seçib.

Abituriyentlərdən Xəyal Fərzəliyev, Elgün Zamanlı, Əsra Bayramova, Şəkər Qədirli, Aslan Aşirov və Tapdıq Məhərrəmli İnformasiya təhlükəsizliyi, Vasif Əsədov, Kənan Məhəmmədli, Azər Zeynallı, Sona Mehdizadə, İlqar Məmmədov, Anar Abıyev və Rüstəm Qarayev isə Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisaslarını seçiblər.

Qeyd edək ki, ötən il də I qrup üzrə 7 nəfər 700 ballı abituriyentin hamısı BANM-ı seçmişdi. Bu zamana qədər Bakı Ali Neft Məkətbindən başqa Azərbaycanın heç bir universiteti bu göstəricini reallaşdıra bilməyib.

Xatırladaq ki, bu il bütün ixtisas qrupları üzrə 700 bal toplamış abituriyentlərdən 13 nəfəri Bakı Ali Neft Məktəbini, 5 nəfəri Azərbaycan Tibb Universitetini, 5 nəfəri ADA Universitetini, 3 nəfəri Bakı Dövlət Universitetini, 2 nəfəri Dövlət İdarəçilik Akademiyasını, 1 nəfəri isə Azərbaycan Dövlət İqtisad Universitetini seçiblər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# 100 ölkəyə ixrac, 790 milyon dollarlıq sifariş

## "Made in Azerbaijan" brendinin coğrafiyası genişlənir






*Əvvəli 1-ci səh.*

### "Türkiyəyə yatırılan sərmayələrimizin həcmi 20 milyard dollara çatacaq"

Sentyabrın 3-də Qırğız Respublikasında keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşündə Prezident İlham Əliyev son illərdə ölkəmizin qeyri-neft sektorunun inkişafı və ixrac imkanlarımız barədə məlumat verərkən bildirib ki, türkdilli dövlətlər arasında indiki şəraitdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi də vacib məsələlərdəndir. Xüsusilə bu ölkələr arasındakı ticarət dövriyyəsinin artırılması üçün əlavə addımlar atılmalıdır.

Prezident İlham Əliyev deyib ki, Azərbaycan qardaş ölkələrə böyük investisiyalar qoyur, ilk növbədə, Türkiyəyə: "Son illərdə Türkiyə iqtisadiyyatına 14 milyard dollar sərmayə qoyulub və Türkiyə də Azərbaycana təxminən bu qədər sərmayə qoyub. Bizim Türkiyəyə sərmayələrimizin həcmi yaxın illərdə 20 milyard dollara çatacaq. Bu, bizim dostluğumuzu, qardaşlığımızı əks etdirir, eyni zamanda Türkiyənin çox böyük iqtisadi potensialını göstərir".

### 22 ölkəyə xidmət ixracı, 14 milyon dollarlıq gəlir

"İxrac icmalı"nda həm də xidmət ixracına yer ayrılıb. Göstərilib ki, son 7 ayda "Azərkosmos" tərəfindən dünyanın 22 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. Bu ixracdan isə 14 milyon dollar məbləğində gəlir əldə edilib.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 87 faizini təşkil edib. İyul ayında isə qurumun xidmət ixracının dəyəri 1,3 milyon dollar təşkil edib. "Azərkosmos"un 7 ay ərzində xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, Malayziya, BƏƏ, Almaniya, Gürcüstan və digərləridir.

### Azərbaycana 7 ayda 191 ölkədən 1655,3 min turist gəlib

"İxrac icmalı"nda ölkəmizə gələn turistlərlə bağlı məlumat da öz əksini tapıb. Sənəddə qeyd edilir ki, yanvar-iyul ayları ərzində Azərbaycana dünyanın 191 ölkəsindən 1655,3 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Yeddi ay ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 747 milyon manat təşkil edib. Yəni 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyul ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 144 milyon AZN və ya 24 faiz artıb.

### 7 ayda "azexport"a 315,5 milyon dollar ixrac sifarişləri daxil olub

Bu müddət ərzində azexport.az portalına daxil olan ixrac sifarişləri çoxalıb. Təkcə iyul ayında portala 31,1 milyon dollar məbləğində ixrac sifarişləri daxil olub.

Ümumilikdə isə 7 ay ərzində daxil olan ixrac sifarişlərinin dəyəri 315,5 milyon dollar təşkil edib.

Bununla yanaşı, hesabatda "Bir pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti barədə də məlumat verilib. Qeyd edilib ki, bu ilin avqust ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı tələb olunan sertifikatlar verilib. Mərkəz vasitəsi ilə həyata keçirilən ixracın dəyəri isə 10,4 milyon dollardan çox olub. Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Qazaxıstan, Hollandiya, İran, Gürcüstan, İsveçrə, Ukrayna, İraq, Moldova, Avstriya, Malayziya, Kipr, Kanada daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunub. Hazırda ölkənin qeyri-neft ixracının 10 faizindən çoxunun sənədləşdirilməsi "Bir pəncərə" İxraca Dəstək Mərkəzində həyata keçirilir.

"İxrac icmalı"nın məqsədi sahibkarları ixracla bağlı maarifləndirməyə, yerli malların ənənəvi və yeni bazarlara çıxarılması imkanlarını artırmağa və beynəlxalq bazarlara inteqrasiya prosesini sürətləndirməyə xidmət edir.

### Azərbaycanın ilk "Şərab evi" Çində açıldı

Son illərdə "Made in Azerbaijan" brendinin dünya bazarında təşviqi istiqamətində ciddi addımlar atılır. Azərbaycanın xarici ölkələrdə ticarət nümayəndəlikləri, ticarət evləri açılır və getdikcə bunun coğrafiyası genişlənir.

Sentyabrın 2-də isə bu sahədə daha bir ilk gerçəkləşib. Belə ki, Çin Xalq Respublikasının Urumçi şəhərində Azərbaycanın "Şərab evi" açılıb. Bu, xarici ölkədə açılan ilk şərab evimizdir. Bu il fevralın 5-də Çinin Pekin şəhərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin rəsmi açılış mərasimi də olmuşdu.

Bununla əlaqədar keçirilən tədbirdə hər iki ölkənin rəsmi şəxsləri ilə yanaşı, Azərbaycanın şərab istehsalçıları və Çinin şərab satışı ilə məşğul olan şirkətlərinin təmsilçiləri iştirak ediblər.

İlk "Şərab evi" Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, həmçinin Azərbaycanın şərab və digər spirtli içki məhsullarının Çin bazarında daha çox tanıdılması və satışının təşkili sahəsində fəaliyyət göstərəcək. "Şərab evi"nin daimi fəaliyyət göstərən sərgisində xüsusi dadı və keyfiyyəti ilə seçilən müxtəlif növdə Azərbaycan şərabları nümayiş olunacaq.

Qeyd edək ki, "Made in Azerbaijan" brendinin təşviqi, ixracın və istehsalın stimullaşdırılması, o cümlədən Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılması və satışının genişləndirilməsi məqsədi ilə xarici ölkələrdə yeni ticarət və şərab evlərinin açılması nəzərdə tutulur.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Təklif bizdən, istək sizdən...

# Uduzan istehsalçı, qazanan işbazdır

## *Elə etmək lazımdır ki, ilk növbədə istehsalçı və alıcı razı qalsın*

Keçmiş SSRİ-də ilk dəfə aqrar islahatlar Azərbaycanda həyata keçirilib. Məqsəd torpağı əsl sahibinə - kəndliyə qaytarıb ona fəaliyyət sərbəstliyi vermək idi. Dünya təcrübəsi göstərir ki, bol məhsul istehsalına nail olmağın yeganə yolu da budur. Sovetlər dönəmindəki inzibati amirlik idarəetmə sistemi isə kəndliyə sərbəstlik vermirdi. Üstəlik, istehsal etdiyi məhsulu "tədarük" adı ilə ucuz qiymətə alıb kəndlini qazanmaq imkanından məhrum edirdi.



Müstəqilliyimizi bərpa etdikdən sonra bu ədalətsizliyi aradan qaldırmaq üçün çox iş görüldü. Qanunvericilik bazası təkmilləşdirildi, kəndliyə maddi və mənəvi dəstək göstərildi, on növ verginin doqquzundan azad olundu. Qeyd edək ki, güzəştli kreditlərin 80 faizi regionlarda fəaliyyət göstərən sahibkarlara verilir. Deməli, güzəştli kreditlərdən daha çox fermerlər istifadə edirlər. Dövlət onları torpaq vergisindən savayı bütün növ vergilərdən azad edib, üstəlik, istifadə etdikləri yanacaq, sürtkü yağları, mineral gübrələr üçün dotasiya ödənilir, həmçinin kənd təsərrüfatı texnikası və damazlıq heyvan və toxumları aşağı qiymətə satır. Məqsəd fermerlərə bol məhsul istehsalı üçün imkan yaratmaqla ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail olmaqdır. Bu gün inamla deyə bilərik ki, ərzaq təhlükəsizliyi sahəsində mühüm işlər görülüb. Bunun nəticəsində son illər bir çox məhsulların istehsalında faizlə deyil, dəfələrlə artım müşahidə edilir. Lakin xoşagəlməz hal odur ki, belə bolluqdan istifadə edən bəzi işbazların məhsulu kəndlidən ucuz qiymətə alıb bazarda baha satmaları haqlı narazılığa səbəb olur.

Dünyada istehsal edilən hər bir məhsulun dəyəri var və qiymət də bu dəyərə uyğun formalaşır. Yəni, istehsal edilən məhsul maya dəyərindən baha satılmalıdır ki, istehsalçı da qazanc götürsün. İstehsalçı qazanc götürməsə, fəaliyyətini dayandırmalı olar. Belə hal bazar iqtisadiyyatının tələbidir. Bu gün paytaxtda satılan məhsulla kəndlinin satdığı məhsulun qiyməti arasında kəskin fərq var. Belə ki, min bir əziyyət çəkib məhsul yetişdirən kəndli ya az qazanır, ya da demək olar ki, qazanmır. Arada olan işbazlar isə, necə deyərlər, "qaz vurub qazan doldururlar". Avqust ayında jurnalist kimi bu məsələni araşdırdıqda məlum oldu ki, "Meyvəli bazar"da 8 kiloqramlıq yeşiklə dolu şaftalı 6 manata satıldığı halda, 4-5 kilometr məsafədə yerləşən Yeni Yasamalda bu məhsulun hər kiloqramı 2 manat 50 qəpiyə satılır. Belə ki, il boyu bu məhsulu yetişdirən kəndli kiloqramı 1 manat 30 qəpiyə satdığı halda işbazlar bundan dəfələrlə çox qazanır. Həmin bazarda yemişin 1 kiloqramı 30-50 qəpik arasında satıldığı halda paytaxtda 1 manat 50 qəpiyə satılır. Bu hal bütün kənd təsərrüfatı məhsullarının qiymətində müşahidə olunur. Görün, nə qədər qiymət fərqi var. Kimi zəhmət çəkir, kimi də zəhmət çəkmədən pul qazanır. Uduzan istehsalçı, narazı qalan da şəhər sakinləridir.

Belə halda məşhur "Nə etməli?" sualına cavab axtarmalı oluruq. Dövlət topdan və pərakəndə satışla məşğul olmur. Ancaq bazarda məhsul satışının tənzimlənməsi üçün mütləq alternativ olmalıdır. Bu işlə bələdiyyələr məşğul ola bilərlər. Şəhərin bütün rayonlarında bələdiyyələrin satış məntəqələri və mağazaları fəaliyyət göstərməlidir. Hətta məhsulun səyyar qaydada ixtisaslaşdırılmış maşınlarla satışını da təşkil etmək olar. Təki istək olsun...

Burada bir məqama toxunmaq istərdik. Heç kəsə sirr deyil ki, paytaxtda sakinlər bəzi bələdiyyələrin fəaliyyətindən narazıdır. Onlara bu barədə irad tutulanda "neyləyək, vəsaitimiz yoxdur" deyirlər. Bu da vəsait qazanmağın bir yolu!

Dünya təcrübəsində də belə hal mövcuddur. Ancaq bir şərtlə: bələdiyyələr qazanc götürmək üçün işbazlarla yarışa çıxmamalıdır. Mağazaların, satış məntəqələrinin və səyyar maşınların üzərində bələdiyyələrə məxsusluğu qeyd edilməlidir. Alıcılar da bilməlidirlər ki, burada qiymətlər münasibdir. Belə alternativ variant işbazların əl-qolunu bağlayacaq. Bir sözlə, təklif bizdən, istək sizdən...

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" 2016-cı il 22 iyun tarixli 940 nömrəli, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli və "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 24 may tarixli 1418 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" 2018-ci il 1 may tarixli 29 nömrəli və "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2018-ci il 1 may tarixli 30 nömrəli fərmanlarının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü və 8-ci hissələrdə, 9.1-ci bənddə "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin;

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 4.2-ci bəndində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820; 2017, № 5, maddə 821, № 11, maddə 2006; 2018, № 2, maddə 181, № 6, maddə 1196) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 6.3-cü bəndində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1418 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 822; 2018, № 6, maddə 1196) ilə təsdiq edilmiş "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"nin 6.1.6-cı yarımbəndində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

# "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanını "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1074-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219) 4-cü hissəsində "Vergi" sözü "Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

# Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədi ilə əhaliyə göstərilən xidmətlərin elektron qaydada həyata keçirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Bununla belə, vətəndaşlara xidmət göstərilməsində şəffaflığı və operativliyi təmin etmək üçün əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, müvafiq informasiya sistemlərinin formalaşdırılması, informasiya texnologiyalarının tətbiqi ilə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınması yönündə bir sıra əlavə tədbirlərin görülməsinə zərurət vardır.

Göstərilən sahələrdə idarəetmə sisteminin təkmilləşdirilməsini, habelə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olan bir sıra qurumların fəaliyyətinin səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında "Mərkəzləşdirilmiş elektron informasiya sistemi" (bundan sonra - MEİS) yaradılsın.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədi ilə "e-sosial" internet portalının (bundan sonra - Portal) üç ay müddətində yaradılmasını təmin etsin;

2.2. məşğulluq tədbirləri ilə bağlı xidmətlərin elektron şəkildə həyata keçirilməsi məqsədi ilə MEİS-də məşğulluq altsisteminin altı ay müddətində yaradılmasını təmin etsin;

2.3. Portal vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə tədbirlər görsün;

2.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla üç ay müddətində:

2.4.1. MEİS haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4.2. Portal haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4.3. pensiya təyinatının avtomatlaşdırılmasına, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsinə və vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. bu fərmandan irəli gələn digər tədbirləri görsün.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Portalın və bu fərmanın 2.2-ci bəndində nəzərdə tutulan altsistemin fəaliyyətini təmin etmək məqsədilə onlarla digər dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin və elektron xidmətlərin göstərilməsinin "elektron hökumət" portalı vasitəsilə təşkili üçün tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində xidmətlərin elektron qaydada həyata keçirilməsi və pensiya təyinatının tam elektronlaşdırılmasına keçidlə əlaqədar Azərbaycan Respublikası qanunlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Portalın və bu fərmanın 2.2-ci bəndində nəzərdə tutulan altsistemin yaradılması və saxlanması ilə bağlı xərclərin maliyyələşdirilməsini iki ay müddətində təmin etsin;

4.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

# "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 iyun tarixli 604 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1087-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 iyun tarixli 604 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 461; 2001, № 10, maddə 640; 2006, № 7, maddə 590; 2010, № 7, maddə 610) 2-ci hissəsinin ikinci abzasında "və 41-ci maddəsinin 12-ci bəndində" sözləri ", 41-ci maddəsinin 12-ci bəndində və 41-1-ci maddəsinin 1-ci hissəsində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2018-ci il*

# İsrailli ekspert Arye Qut ABŞ mətbuatında dərc olunmuş məqaləni tənqid edib

Bu günlərdə ABŞ-da çıxan ermənipərəst "Asbares" qəzetində yəhudilərə və İsrailə qarşı düşmənçilik ruhunda yazılmış "Erməni diplomat İsraildə Holokost barədə sual versə, nəticəsi nə olar?" sərlövhəli məqalə dərc olunub.

Məqalənin müəllifi Ara Xaçaturyan yazır: "Erməni xalqının faciəsi tarixi məsələdir və bu, siyasi diskussiya probleminə çevrilməməlidir. Qoy, 1915-ci ildə Osmanlı imperiyasında baş vermiş hadisələrin düzgün qiymətini tarixçilər versinlər".

Ötən həftə İsrail xarici işlər nazirinin müavini (əslində İsrail XİN-in Avrasiya departamentinin rəhbərinin müavini) Aleksandr Ben-Tsvi bu sözləri belə adlandırılan "Erməni soyqırımı" memorialına gedəndən sonra söyləyib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc olunmuş "Amerikanın ermənipərəst mətbuatında antiisrail ruhlu növbəti məqalə" adlı materialında bu barədə yazır.

Xaçaturyan sözünə davam edərək yazır: "Bu sözləri oxuyanda mən fikirləşdim ki, əgər Ermənistan xarici işlər nazirinin müavinlərindən biri Yerusəlimdəki Yad Vaşem - Ümumdünya Holokost qurbanlarının xatirə mərkəzinə gedəndən sonra yəhudilərin nasist Almaniyası tərəfindən sistematik şəkildə məhv edilməsinin qurbanlarının xatirəsinə ehtiramını bildirəndən sonra "Holokost" sözünü işlətməkdən imtina etməyə başlasa, nə baş verər?"

Məqalə müəllifi qeyd edir ki, erməni KİV-ində bu cür antiisrail ruhlu bəyanatlar çox geniş yayılıb. Arye Qut yazır: "İsrail 1915-ci il hadisələrini rəsmən soyqırımı kimi tanımır. Bu fakt praktiki olaraq daim Ermənistanda və erməni KİV-ində ciddi antiisrail və antisemit isteriyasına səbəb olur. Ermənilər yəhudiləri və israilliləri çox günahlar törətməkdə ittiham edirlər. Belə "günahlardan" biri də "təbii yəhudi xudbinliyi"nin təzahürü və israillilərin "soyqırımı" konsepsiyasının özünü inhisarlaşdırmaq cəhdidir. Ermənistana xatırlatmaq istərdik ki, "soyqırımı" termininin özü 1915-ci il hadisələrindən xeyli sonra yaranıb və ona heç bir aidiyyəti yoxdur".

Qut vurğulayır ki, məqalə müəllifinin fikrincə, qondarma "erməni soyqırımı"nın tanınması İsrail ilə Ermənistan arasında münasibətləri möhkəmlədəcək. İsrailli ekspert soruşur: "Buna necə sakit yanaşmaq olar? Onlar bizə şərt qoyurlar ki, əgər İsrail "erməni soyqırımı"nı tanısa, Ermənistan onunla əməkdaşlıq edəcək. İsrail Knessetinin bu məsələni araşdırmasına lüzum yoxdur, çünki bu, sırf tarixi, daha dəqiq desək, elmi və mübahisəli məsələdir. Bu məsələdə aydın olmayan və ziddiyyətli məqamlar çoxdur. Burada yalan məlumatlar və saxtalaşdırmalar çoxdur. Qoy, Türkiyənin həmişə təklif etdiyi kimi, hər iki dövlət arxivləri açsın, alimlər əyləşib sənədlər və faktlar əsasında bu hadisələr barədə həqiqəti sübut etsinlər və dünyaya göstərsinlər. Məni həmişə heyrətləndirir: Əgər Ermənistan haqlıdırsa, o, nə üçün arxivlərin açılmasını istəmir, daha dəqiq desək, onları açmağa nə üçün qorxur?!"

Arye Qut "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsində sual edir: "Qoy, kimsə desin, biz qondarma "erməni soyqırımı"nı nəyin naminə tanımalıyıq - təkcə ondan ötrü ki, Ermənistan və ermənilər bizdən razı qalsınlar? Bu, bizə lazım deyil. Ya da desinlər, yəhudi xalqının erməni xalqı qarşısında mənəvi öhdəliyi varmı?"

İsrailli ekspert vurğulayıb: "Mən soruşuram, hansı mənəvi məsuliyyətdən söhbət gedir?! Ermənistanın sabiq prezidenti Serj



Sarkisyan iki il bundan əvvəl faşist və antisemit Qaregin Njdenin abidəsini rəsmən açdı. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanları milli qəhrəmanlara çevirəndə biz susmamalıyıq. Deyin, Yerevanda faşistə və antisemitə abidələr ucaldılmasına bizim münasibətimiz necə olmalıdır? Bu ölkə bəşəriyyət əleyhinə cinayətlər törətməkdə ittiham olunmuş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinə təhqirdir. Bundan sonra da bizdən xahiş edirlər ki, 1915-ci il faciəsini soyqırımı adlandıraq?!"

Məqalə müəllifi vurğulayır ki, müasir Almaniya öz gənclərini nasist Almaniyanın törətdiyi dəhşətlər barədə dönə-dönə xəbərdar edir. Bu dövlətdən fərqli olaraq erməni faşistlər Dro və Njdenin ətrafında şəxsiyyətə pərəstiş yaradılması bütövlükdə müasir erməni cəmiyyətinin böyük nöqsanıdır. Arye Qut yazır: Onların şərəfinə sikkələr zərb edilir, onlara abidələr ucaldılır, onların həyat və fəaliyyəti barədə filmlər çəkilir - guya onlar həqiqətən xalq qəhrəmanlarıdır. İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri tarix heç vaxt unutmayacaq. Erməni faşist komandiri general Dronun rəhbərlik etdiyi ermənilər minlərlə yəhudiyə qarşı ölüm marşlarında və onların məhv olunmasında iştirak ediblər. Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə nasist Vermaxtın 20 minlik erməni legionunun törətdiyi qəddar əməlləri heç vaxt unutmayacaq".

Xaçaturyan özünün antiisrail ruhlu məqaləsində daha sonra yazır: "Mən Ermənistan XİN başçısının müavini Mnatsakanyan İsrail ilə diplomatik qalmaqala başlamasını təklif etmirəm, lakin o və digər vəzifəli şəxslər bu şəraitdə Ermənistanın fələstinlilərə silah verməsi və Holokosta hörmətsizlik göstərməsi imkanını nəzərdən keçirməlidirlər".

Arye Qut yazır: "Ermənilərin İsrail dövlətinin ünvanına şantajı və İran İslam Respublikası kimi Ermənistanın da fələstinli terrorçulara silah göndərməsi İsrail Dövlətinin vətəndaşı kimi məni qorxutmur, amma hiddətləndirir. Məlumdur ki, Ermənistan terrorçuluq və separatizm siyasətini dövlət səviyyəsində yürüdür. 26 ildən çoxdur ki, 5000-ə yaxın azərbaycanlı girov Ermənistanda əsirlikdədir, onlar hər gün dəhşətli işgəncələrə, ağlasığmaz təhqirlərə və alçaldılmağa məruz qalırlar. Həmin əsirlər arasında dağ yəhudiləri də var və onların qohumları tərəfindən Ermənistanın keçmiş prezidentinə müraciət edilməsinə baxmayaraq, ermənilər həmin yəhudiləri hələ də əsir saxlayır, amansız işgəncələrə məruz qoyurlar".

Ekspert vurğulayır ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini - Dağlıq Qarabağı və bu bölgəyə heç bir aidiyyəti olmayan 7 ətraf rayonu işğal edib. Ermənistan bu ərazilərə iddia edir. Arye Qut yazır: "Yeri gəlmişkən, Yaxın Şərqdən olan muzdlu silahlılar da bu işğalda Ermənistanı dəstəkləyiblər. Erməni işğalı və etnik təmizləmələr ucbatından Azərbaycan 1 milyon qaçqını qəbul etmək məcburiyyətində qalıb. Münaqişə özü və Azərbaycan ərazilərinin işğal edilməsi bütün Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə təhdid mənbəyi kimi qalır.

Qeyd etmək lazımdır ki, İsrailin Azərbaycanla bir sıra amillərə, o cümlədən insan amilinə əsaslanan çox səmimi münasibətləri var. Avrasiyada və bütün müsəlman aləmində heç bir ölkə İsrail ilə Azərbaycan qədər sıx əlaqə saxlamır. İki ölkə arasında diplomatik münasibətlərin 26 illik tarixi ərzində bu münasibətlərin strateji əhəmiyyətini və həyat qabiliyyətini nümayiş etdirən pozitiv hadisələr çox olub. Bu ölkələr yəhudi dövləti ilə əhalisinin əksəriyyəti müsəlmanlar olan dünyəvi dövlət arasında bu cür münasibətlərin zəruriliyini və strateji əhəmiyyətini sübut ediblər. Bizim dost dövlətlərimiz həqiqi və sabit strateji tərəfdaşlar kimi hərəkət edirlər. Azərbaycanlılar və yəhudilər əslində nəinki dinc yanaşı yaşamağı, həm də həqiqi dostlar olmağı, öz münasibətlərini inkişaf etdirməyi və möhkəmlətməyi bacarırlar".

Ekspert vurğulayır ki, Azərbaycanda yəhudilərə heç vaxt əcnəbilər kimi baxmayıblar, yəhudi xalqı burada heç vaxt sıxıntı, təhqir, talan və antisemit xarakterli hərəkətlərlə üzləşməyib, əksinə, özünü evində olduğu kimi hiss edib.

Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli "The Jerusalem Post" qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: "Haçansa Azərbaycanda olmuş hər bir israilli təsdiq edə bilər ki, burada yaşayan yəhudilər hər hansı polis kordonundan keçmədən rahatca sinaqoqa gedə bilər, əynində milli yəhudi geyimi, başında yəhudi papağı olduğu halda şəhərdə sakitcə gəzə bilər, halbuki hətta Qərbin inkişaf etmiş bəzi ölkələrində bu cür hərəkətlər həyat üçün təhlükəli ola bilər.

İsrail Dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində nizamlamağa çağırır. Mənim fikrimcə, İsrail Cənubi Qafqazın lideri olan Azərbaycan ilə dostluğu və strateji münasibətləri daha da inkişaf etdirməli və möhkəmlətməli, hər hansı qüvvələrin bu qarşılıqlı münasibətlərə ziyan vurmasına imkan verməməlidir".

# Əlillik dərəcəsinin dəyişdirilməsi ilə bağlı dələduzluq edənlər cinayət məsuliyyətinə cəlb olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial problemlərin həlli, əhalinin aztəminatlı təbəqəsinin maddi vəziyyətinin yaxşılaşdırılması, pensiya təminatı sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Lakin bəzi hallarda əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi mənfi amillərə, o cümlədən əhalini narahat edən müxtəlif sahələrdə korrupsiya hüquqpozmalarına rast gəlinir. Belə qanunazidd hərəkətlərin qarşısının alınması və gələcəkdə təkrarlanmaması istiqamətində kompleks, sistemli və ardıcıl tədbirlər davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, özlərini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun vəzifəli şəxsləri kimi təqdim edən bir qrup şəxsin pensiya və ünvanlı sosial yardımların təyin olunması ilə bağlı İsmayıllı rayon sakinlərindən qanunsuz pul almaları barədə daxil olmuş müraciət Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində Gülarə Bədirova tanışını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətli vəzifəli şəxslərinə təsir etmək imkanına malik olmasına inandırıb, əlillik dərəcəsinin dəyişdirilməsi üçün ondan sentyabrın 3-də C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunda cinayət əlaqəsinə girdiyi həkim-kardioloq Yeganə Osmanovanın xidməti otağında 2500 manat məbləğində pulu birlikdə alarkən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən cinayət başında yaxalanıb.

Xidməti otağa baxış zamanı həmin pullar, əlillik dərəcəsi və qrupunun verilməsi üçün zəruri olan sənədlər, o cümlədən epikrizlər, habelə istintaq üçün əhəmiyyət kəsb edən digər sənədlər aşkar edilərək götürülüb.

G.Bədirovanın və Y.Osmanovanın özgə əmlakını dələduzluq yolu ilə ələ keçirməsinə, başqasını rüşvət verməyə təhrik etməsinə əsaslı şübhələr müəyyən edildiyindən onlara Cinayət Məcəlləsinin 178.2.1-ci (dələduzluq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.3-cü (dələduzluq öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 32.4-cü, 312.2-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan olunub. G.Bədirova barəsində məhkəmənin qərarı ilə həbs, Y.Osmanova barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə həmin qanunsuz hallar tam və hərtərəfli araşdırılır. Həmin şəxslər tərəfindən törədilməsi ehtimal olunan digər cinayətlərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Saxta sənədlər əsasında əlillik dərəcəsi və qruplarının verilməsi səbəbindən qanunsuz pensiya təyinatı hallarına, habelə korrupsiya və digər bu kimi mənfi hallara qarşı bundan sonra da Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən ardıcıl və kəsərli mübarizə tədbirləri davam etdiriləcək.

## “AZƏRBAYCAN”– 100

# İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

Əvvəli 1-ci səh.

“Mən mətbuatı çox aradım. Lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs mənə cəsarət verdi: müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayalım. Şübhəsiz ki, bu sətirlərlə veriləcək məlumat Azərbaycanın paytaxtının şan və heysiyyatı və hüciyyəti ilə olmayacaq... Düşündüm ki, nəqis də olsa, bir şey olsun. Biz nəqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar, vətən eşqi, məmləkət məhəbbəti ilə səy edər, bu başlancığı təkmil edərlər...”. (M.Ə.Rəsulzadə: “Azərbaycan paytaxtı”, “Azərbaycan” qəzeti, 1918, kanuni-əvvəl, № 3, 6,19,31).

Cümhuriyyət dövründə ən böyük çətinliklərdən biri o idi ki, ölkədə kütləvi savadsızlıq hökm sürürdü. Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Əhməd bəy Ağaoğlunun, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin və digər təəssübkeşlərimizin kədərlə, bəzən qınayaraq, bəzən acı-acı gülərək, bəzən satira qamçısı ilə vuraraq, amma hər bir halda sevərək, ürək yandıraraq təsvir etdikləri həmin millət idi. Firudin bəy Köçərlinin 1906-cı ildə “İrşad” qəzetində yer verilən və geniş müzakirələrə səbəb olan “Qaranlıqda qalanlarımız” adlı məqaləsində bəhs etdiyi qaranlıqda qalanlarımızı - məktəbdən, təhsildən uzaq salınmış, cəhalətin həyatın dibinə endirdiyi soydaşlarımızın düşüncələrini maarif nuru ilə işıqlandırmaq ən mühüm məsələlərdən biri idi.

“Azərbaycan” mətbuatımızın “Əkinçi”sindən başlayan maarifçilik yoluna sadiq idi. Ancaq sələflərindən fərqli olaraq onun bəxti gətirmişdi. Azad ölkənin mətbuat orqanı idi. Müstəqil dövlətimizin vətəndaşlarının hüquqlarını qoruyur, inkişafı naminə çalışırdı. Cümhuriyyət hökuməti əhalinin savadlandırılması, yeni milli kadrların hazırlanması istiqamətində məqsədyönlü işlər görürdü. “Azərbaycan” qəzetinin yazarlarının əksəriyyəti uzun illər həm də bunun üçün mücadilə etmişdilər. Qəzetin 1919-cu il 9 aprel tarixli nömrəsində yazılırdı: “...millətin xoşbəxtliyi səltənətin əzəmətindən asılı deyil, millətin səadəti asılıdır maarif nihalının o millət içərisində bitib və nə əndazədə kök salb qol-budaq atmağından”. Bu fikirlər, əslində, bütün “Azərbaycan”çıların mövqeyini əks etdirirdi. Maarif sahəsində hökumətin həyata keçirdiyi tədbirlər haqqında qəzetdə vaxtaşırı məlumatlar verilirdi. Bu mənada da “Azərbaycan”ın mövzuları geniş idi. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin maarif sahəsində təqdirəlayiq işləri çox idi. Onların içərisində 1919-cu ilin 15 noyabrında fəaliyyətə başlayan ilk ali məktəbin - Bakı Dövlət Universitetinin yaradılması xüsusilə diqqətəlayiqdir. Bu universitetin açılmasından əvvəl də, bütün fəaliyyəti boyu da hökumət qəzetində ətraflı məlumatlar verildi. Məhəmmədağa Şahtaxtlının “Azərbaycanda darülfünun” adlı məqaləsində ölkədə universitet açılması müstəqil dövləti qurmağın, qorumağın, inkişaf etdirməyin mühüm vasitələrindən biri hesab edilirdi: “Darülfünun olmazsa... ümumi maarifə aid orta məktəblərimizdə dərs verəcək müəllimlərimiz olmaz. Naxoşlarımızı müalicə edəcək təbiblər yetişməz. Hüquqşünas alimlər bulamayız ki, mal və mülk üçün münaqişə edən vətəndaşlarımızı... mühakimə etsin... Mədəni həyatın şəraitinə və amillərinə təhdid nəzərilə baxıldıqda o dəqiqə görünür ki, bu həyatın mənbəyi, sərçeşməsi mabədəl qəvalül-darülfünundur. Darülfünundan əl çəkmək mədəni həyatdan rugərdan olmaqdır”.

Əhalinin maarifləndirilməsi üçün hökumətin əhəmiyyətli tədbirlərindən biri də XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının yetişməsində mühüm rol oynamış Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Gürcüstandan Qazaxa köçürülməsi oldu. “Azərbaycan”ın səhifələrində qalan məlumatlar cümhuriyyət hökumətinin fəaliyyətinin ilk dövründən bu işlə məşğul olduğunu deməyə əsas verir. Qəzetin birinci ilinin 14-cü nömrəsində yazılanlardan həmin məsələnin iyunun 10-da qəti şəkildə həll edildiyi bəlli olur.

Azərbaycanda milli kadr çatışmazlığı yeni hökuməti daha bir zəruri addım atmağa vadar etdi. Cümhuriyyət hökuməti 100 nəfər gənci dünyanın qabaqcıl ölkələrinin ali məktəblərində təhsil almağa göndərdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bu təşəbbüsünü alqışlayan Fərhad Ağazadə “Avropaya gedən tələbələrin Azərbaycana töhfələri” adlı məqaləsində gənclərə müraciət edirdi: “Qardaşlar! Bu zikr edilmiş əsərlərdən bizə bir sovqat gətiriniz, qarınca kibi hər yerdən vətənimizə bir şey toplayınız. Bu şeyləri cəmləyib sonra mükəmməl tariximizi, ahəngli qəvaidəmizi, dəbdəbəli ədəbiyyatımızı yapaq, daha doğrusu, yenidən icad edək. İcad edib də mədəniyyətə doğru həvəsli bir millət olduğumuzu Avropaya sübut edək!”(“Azərbaycan” qəzeti, 1919, №351).

Bu dövrdə Abdulla Şaiqin rəhbərliyi ilə ana dilində ilk orta məktəb açıldı. Qadınların savadlandırılması üçün də ciddi tədbirlər görüldü. “Azərbaycan” bütün bu məsələlər barədə əhatəli şəkildə oxuculara məlumat verirdi. Qəzetdə qadınları ictimai həyatda fəal iştirak etməyə, kütləvi savadlanmaya çağıran məqalələr çap olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti qısa fəaliyyəti müddətində mətbuat sahəsində də əhəmiyyətli işlər gördü. Mətbuatın inkişafı üçün münbit şərait yaradıldı. Cümhuriyyət dövründə yalnız bolşevik mətbuat orqanlarının sayı 40-dan çox idi. “Zəhmət sədası”, “Azərbaycan füqərası”, “Füqəra sədası”, “Al bayraq”, “Füqəra”, “Hümmət”, “Gələcək”, “Hürriyyət”, “Tartan-partan” və başqa bolşevik ruhlu mətbuat orqanları hökumətin fəaliyyətini tənqid edir, Azərbaycanın qurtuluşunu sinfi mübarizədə, sosialist inkişaf yolunda gördüklərini yazırdılar. “Azərbaycan”, “Azerbaydjan”, “Açıq söz”, “Bəsirət”, “Müsavat”, “İstiqlal”, “Türk sözü”, “Millət”, “Azərbaycan hökumətinin əxbarı” kimi mətbuat orqanları isə Azərbaycanın müstəqil yaşamaq hüququnu müdafiə edirdilər.




Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən qəbul edilən daha bir mühüm sənəd “Mətbuat haqqında Nizamnamə” mətbuata dair normativ aktları müəyyənləşdirdi. Nizamnamənin birinci bəndində mətbuat azadlığı bəyan edilirdi. Nizamnamənin hazırlanmasında, müzakirəsində və 1919-cu ilin 30 oktyabrında qəbul edilməsində xüsusi xidmət göstərənlərdən biri də “Azərbaycan” qəzetinin redaktoru, Azərbaycan Parlamentinin üzvü Şəfi bəy Rüstəmbəyli oldu. Parlamentin 23 oktyabr 1919-cu il tarixli iclasında nizamnamə layihəsini də Şəfi bəy Rüstəmbəyov təqdim etmişdi. Parlamentin Həsən bəy Ağayevin sədrliyi ilə keçən iclaslarında Şəfi bəy Rüstəmbəyov, Səməd Ağamalıoğlu, M.V.Əxicanov, İbrahim Əbilov, Nəsib bəy Yusifbəyli, Məhəmməd Əmin Rəsulzadə, Əliheydər Qarayev, Əhməd Pepinov, A.Kazımzadə, V.A.Baqradze, Q.K.Saniyev və başqalarının çıxışlarında, eləcə də dövri mətbuatın, “Azərbaycan” və “İstiqlal” qəzetlərinin açdığı müzakirələrdə müəyyən fikir ayrılıqları olsa da, mətbuat işinin nizamlanması, jurnalistikanın inkişafı, söz, fikir və informasiya azadlığının təminatı baxımından nizamnamə yüksək dəyərləndirildi.

Ölkədə söz və mətbuat azadlığını əsas məqsəd bilən bu nizamnamə parlamentdə ciddi müzakirələrdən, mübahisələrdən sonra qəbul edildi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov xaricdə olduğundan bu mühüm sənədi baş müavin Həsən bəy Ağayev, katib Əhməd Cövdət, idarə rəisi Vəkilov imzaladılar.

Rəsmi qəzetdə rəsmi sənədlər, protokollar və fərmanlar, dövlət quruculuğu məsələləri, parlamentin fəaliyyəti haqqında da mütəmadi yazılar dərc olunurdu. Belə ki, 1918-ci il noyabrın 16-da yenidən öz işini bərpa edən Azərbaycan Milli Şurasının, şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin Parlamentin çağırılması ilə əlaqədar noyabrın 19-da Azərbaycan əhalisinə müraciəti, şurada gedən müzakirələrin materialları və qəbul olunan qərar qəzetdə dərc edildi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladıqdan sonra onun fəaliyyəti “Azərbaycan” qəzetində geniş işıqlandırılırdı. Həmin gün münasibətilə yazdığı “Tarixi günümüz” adlı məqaləsində Üzeyir Hacıbəyli bildirirdi: “Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi. Bəs bu gün haman bu Azərbaycan Cümhuriyyətinin milli parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir. ...Belə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid - parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsulu yolunda var qüvvəsilə çalışacaq və Vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır” (“Azərbaycan” qəzeti, 7 dekabr 1918, №58).

Fərhad Ağazadə “Parlamandan nə tələb olunur” adlı məqaləsində isə yazırdı: “Bu, müqəddəs bir yerdir ki, orada millətin dərdi, vətənin haləti müzakirə olunub çarələri üçün də tədbirlər ittixaz olunacaq. Məbuslar arasında bəliğ və uzun-uzadı nitq söyləyənlər də az deyil, lakin onlardan millət naminə rica olunur ki, fəsahət və bəlağət qabiliyyətlərini və natiqlik məharətlərini sair “əsari-nəfisə” məclislərinə buraxıb parlamanımızda ancaq dərdlərimizdən danışsınlar, onlara əlaclar tapsınlar. Bunların hamısından məclis xitaməirdikdə millətimiz məbuslarımızdan nə iş gördüklərini tələb edəcək. Bu, gərək hər bir qədəmdə, hər bir hərəkətdə məbusların yadından çıxmasın. Məbusların görəcəkləri iş hədsiz və hesabsızdır” (“Azərbaycan” qəzeti, 2 aprel 1918).

“Azərbaycan”çılar ölkə vətəndaşlarını ayıq-sayıq olmağa, üzərlərinə düşən vəzifənin məsuliyyətini anlamağa, tarixin verdiyi bu böyük şansı əldən verməməyə səsləyirdilər. Xəlil İbrahim “Azərbaycan Parlamanı dəvəti münasibətilə” adlı məqaləsində yazırdı: “Bu gün Azərbaycanın həqiqi sahibləri-xəlq öz nümayəndələri lisanilə parlaman kürsi-xitabətindən öz arzu və amallarını aləmibəşəriyyət hüzurunda nümayiş etdirəcəklərdir.

Azərbaycan türkləri məhkum ikən hüquqi-milliyyə və istiqlal mübarizəsi düsturu olaraq meydanə atmış olduğu “yaşa və özgələrə yaşamaq imkanı ver” şüarına sadiq qalaraq məhkum ikən tələb etdigi mütənasib nümayəndəlik əsasını müstəqil olduqda da unutmayaraq Azərbaycanda əqəliyyət təşkil edən millətlərin də mütənasib nümayəndəlik həqqinə riayətlə bu əsas üzərinə parlaman çağırmağı lazım bildilər.

Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün degil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştirakə dəvət etdilər, Azərbaycanda heç millət, heç sinif, heç silk hakim, ya məhkum ola bilməz, hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadətilə məsud, ələmilə mövləm olsun.

Hamı özünü müsavülhüquq vətəndaş hiss etsin”.

Dövlət quruculuğuna, islahatların aparılmasına, məmurların və millət vəkillərinin üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələrində, bir sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin güclənməsində “Azərbaycan”çılar qələmləri ilə yardım edirdilər. “Azərbaycan” müstəqil ölkə vətəndaşlarının qarşılaşdıqları heç bir bir nöqsanı diqqətindən kənarda qoymurdu. Süründürməçiliyə, rüşvətxorluğa, hüquq mühafizə orqanlarının özbaşınalığına, parlamentdəki vəziyyətə, məvaciblərin azlığına və digər problemlərə qəzetdə daim münasibət bildirilirdi. Üzeyir Hacıbəyli “Məmurlarımız haqqında” məqaləsində bildirirdi: “Vaqeən məmurların rüşvətxorluğu hökumət və məmləkət üçün qorxulu bir vaqeədir... Odur ki, rüşvətxorluq iylə mübarizə qılmaq hökumətin böyük vəzifələrindən biridir” (“Azərbaycan” qəzeti, 5 sentyabr 1919).

“Bir sual münasibətilə” adlı məqaləsində də Üzeyir bəy rüşvətxorluğa qarşı barışmaz mövqeyini ifadə edirdi: “Adam öldürmək bir cinayət olduğu kimi, rüşvət almaq dəxi bir cinayətdir. ...Nifrət və istikrahla qarşılanacaq olan bu adam vaqeən mənəvi bir edama məhkum edilib, cəzai-səzasinə çatacaq və aldığı rüşvət də ona haram olacaqdır” (“Azərbaycan” qəzeti, 22 oktyabr 1919). “Daxili işlərimizdən” sərlövhəli yazısında isə o, başqa bir mühüm məsələyə diqqəti çəkirdi: “Polis boylə bir zənndə idi ki, onun vəzifəsi əhalinin baş və bədəni üzərinə şallaq çəkməkdən və rüşvət almaqdan ibarətdir.

Fəqət azad və müstəqil Azərbaycan hökumətində boylə bir əcayib vəzifəşünaslığa yol verilməməlidir. Polis əhli öz vəzifəsinin fəsl mənasını dürüst bilməli və dərk etməlidir. Onun doğrudan-doğruya vəzifəsi əhalinin canını, malını, şərəf və heysiyyatını hər bir təcavüzdən qorumaq və dövlət qanun və qaydalarını cəmaət arasında icra edilməsinə çalışmaqdır. Əhali polis məmurlarını qorxu üzündən deyil, onu təcavüzlərdən qoruyan bir mühafizə, bir qoruqçu sifətilə layiqi-ehtiram bilməlidir” (“Azərbaycan” qəzeti, 25 oktyabr 1919).

Üzeyir bəy maaşların azlığı, millətin maddi vəziyyətinin aşağı olmasından bəhs edərkən müəllimlərin timsalında problemin dözülməzliyinə belə diqqəti çəkirdi: “Xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar və ailə sahibi olan bir müəllim, hətta subay adamlar da dolana bilməzlər” (“Əgri yol”, “Azərbaycan” qəzeti, 10 aprel 1919).

Cəfər Cabbarlı isə “Parapetdən Şamaxı yoluna qədər” (“Azərbaycan” qəzeti (rus dilində), 26 noyabr 1918) adlı felyetonunda redaksiya əməkdaşlarının düşdüyü ekstremal şəraitlə yanaşı, dövlət məmurlarının, nazirlərin astagəlliyi, sosial problemlərə soyuq, biganə münasibətlərini gülüş hədəfinə çevirirdi.

“Azərbaycan”çılar vacib problemləri oxucuların nəzərinə çatdırmaqla yanaşı, onun həlli yollarını da göstərirdilər. Üzeyir Hacıbəyli ümidlə yazırdı: “Məmləkətimiz və vətənimiz kəmali-sürətlə bir tərəfdən qüvvət tapıb, bir tərəfdən də tərəqqi edəcək və getdikcə ağ günlərə çatacaqdır” (“Xatimə”, “Azərbaycan” qəzeti, 15 may 1919).

Qəzet xoş gündə - Bakının erməni-daşnak birləşmələrinin əsirliyindən qurtuluşu günündə fəaliyyətə başlamışdı. Ancaq ondan əvvəlki qanlı-qadalı hadisələr Azərbaycan xalqına elə bir mənəvi yara vurmuşdu ki, sağalması çətin idi. 1918-ci ildə Bakıda ermənilərin azərbaycanlılara yaşatdıqları dəhşətlərin şahidi olmuş Məhəmməd adlı biri “Azərbaycan” qəzetində yazırdı: “Küçələr meyitlərlə dolmuşdu. Quba meydanından (indiki Füzuli meydanı) Nikolayevski (hazırkı İstiqlaliyyət küçəsi) caddəsinə qədər bazar tamam yandırıldı. Uşaq, böyük, arvad, kişi - heç kəsə fərq qoymadan hamısını qətl edirdilər. Müsəlmanların ev, dükan və mağazaları yandırılmışdı. Bir müsəlman həyətinə daxil olub burada 30-dan 40-a qədər uşaq, arvad, kişi cənazələrini gördüm. Müsəlmanların tələfatı, yalnız qətl edilənlər 5-6 minə qədərdir”.

“Azərbaycan” qəzetində “Mart hadiseyi-ələməsinin müxtəsər tarixçəsi” sərlövhəli məqalədə Şaumyan, Saakyan və Arekyanın rəhbərlik etdikləri dəstənin Bakıdan qabaq Şamaxıda qırğınlar törətdikləri yazılır: “Martın 16-da xəbər gəldi ki, bolşevik soldatları Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına gələn müsəlman kəndlərini, o cümlədən Ağdərə, Novxanlı, Qarxunlu kəndlərini qarət edib müsəlmanları qırırlar”. Qəzetdə Şamaxı qırğınında iştirak edən bolşevik-erməni silahlı birləşmələrinin sayı da göstərilirdi: “Şamaxı mahalına bir qitə göndərilib, əhalı məhv edilir. 4 min əsgərin yüzdə səksəni erməni olub”. Erməni-bolşevik birləşmələrinin yandıqdıqları Şamaxının ən qədim tarixə malik məscidinin şəklini səhifələrində dərc edərək bu günümüzə çatdırdı. Qəzetdə Şamaxının yalnız xarabalıqları qaldığı yazılır, sağ qalanlar belə təsvir edilir: “Biçarə şamaxılılar öz isti ocaqlarını buraxıb yağış-yağmurun altında bu səhraları ata oğlunu, ana qızını gözlərinin yaşını tökə-tökə axtarırlardı”. (“Azərbaycan” qəzeti, 31 mart 1919, №147).

Hacıbəyli Üzeyir imzası ilə “Başlanır” adlı məqalədə olduqca ibrətamiz məsələlərə toxunulurdu: “Özgənin iki gözünü çıxartmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu tutmuş olan daşnaklardan nəticəsi hər vaxt erməni millətini fəlakətdən fəlakətə salan “müsəlləh üsyan”lardan başqa özgə bir qabiliyyət gözləmək üçün cahil və qafil olmaq lazım gəlir.

Daşnaklar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzetə vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir” (“Azərbaycan” qəzeti, 13 fevral 1919). Müəllifin “Eyni müamilə gözləyirik” adlı məqaləsində isə qeyd edilirdi: “Qarabağda bu “hartu - vurtu” salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməyə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanlarıdırlar, bu güruhi - layəfəlhun erməni millətinin gözünü o qədər qorxudublar ki, bir bu qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilirsə və onların yuvaları dağılırsa, Qarabağ erməniləri asudə nəfəs çəkib, həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan hökumətinin ədaləti altında və sayeyi - mərhəmət qayəsində kəmali-asudəgi ilə imrari-məişət edərlər” (“Azərbaycan” qəzeti, 5 may 1919).

Şəfi bəy Rüstəmbəyli “Düşünmək vaxtıdır” məqaləsində “Daşnaksütyun” partiyasının şovinist siyasətinin ermənilərin özlərinə də xeyir gətirməyəcəyini, bu yolun onları məhvə aparacağını deyirdi: “Bizim üçün vacibdir ki, erməni xalqı nəhayət, “Daşnaksütyun” partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, hələ nə qədər ki gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır” (“Azərbaycan” qəzeti, 19 sentyabr 1919, №2).

Daşnakların əsl xislətini göstərən, Tiflisdə ingilis dilində nəşr olunan “Corciən meil” qəzetindəki məqaləyə Üzeyir bəy “Corciən meil”in məqaləsi” adlı yazısı ilə münasibət bildirirdi: “Arzumuz budur ki, bu məqalə Avropa mətbuatına dəxi keçib, daşnak ilanlarına inananları ayıldıb doğru və həqiqətə qarşı yumulmuş olan gözləri açdırsın və bu yalanlar vasitəsilə nə qədər zəlalət və rəzilət törəndiyini və bunun nəticəsi olaraq nə kibi haqsızlıqlara yol verildiyini Avropa əfkari-ümumiyyəsinə anlatsınlar” (“Azərbaycan” qəzeti, 21 oktyabr 1919).

“Ermənilər” (“Azərbaycan” qəzeti 25 sentyabr 1918), “Andronik nə istəyirmiş” (“Azərbaycan” qəzeti, 19 yanvar 1919, № 68) və bu qəbildən olan digər yazılarında Fərhad Ağazadə azərbaycanlıların qanına susamış erməni quldurlarının törətdikləri vəhşiliklərdən, talanlardan, xalqımızın vətənpərvər övladlarının onlara layiqli cavab verdiyindən, Bakının daşnak-bolşevik quldurlarından azad edilməsindən bəhs edirdi.

Çox çətin şəraitdə müstəqil dövlətin möhkəmləndirilməsi üçün çalışanların əzmi heyrətamiz idi. Çünki Fərhad Ağazadə “Türk şüərası və istiqlal” adlı yazısında bildirdiyi kimi, istiqlal minlərcə şəhidin qanı bahasına başa gəlmişdi (“Azərbaycan” qəzeti, 28 may 1919, № 190).

Azərbaycanın dövlət müstəqilliyinə təhdidlər də bitməmişdi. Şimaldan gələn qasırğa getdikcə yaxınlaşırdı. Üzeyir bəy yazırdı: “...bizim üçün şimaldan təhlükə mövcud olduğu məlum bir məsələdir. Bunu heç vaxt unutmayıb da var qüvvəmiz ilə çalışmalıyıq ki, bu şimal təhlükəsinin rəddinə qarşı həmişə və hər bir halda hazır olaq. Ona görə mümkün mərtəbə hazırlanmalı və heç bir fədakarlıqdan çəkinməməliyik.

Biz hazır olandan sonra düşməndən qorxumuz yoxdur” (Ü.H. “Dərbənd əhvalatı”, “Azərbaycan” qəzeti, 26 may 1919).

Uzun illərin əsarətindən qurtulmuş bir xalqın nə vaxtsa yenidən Rusiyanın işğalına məruz qalacağından narahatlıq “Azərbaycan”ın səhifələrində gedən bir çox yazılarda əksini tapdı. “Rusiya əhvalı” məqaləsində Üzeyir bəy həmin hissləri ifadə edirdi: “Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır...Təhlükə bolşevik tərəfindənmi və ya Denikin tərəfindən vaqe olacaqmı, bizdən ötrü təfavüt yoxdur, qorunmaq və hər bir vasitə ilə istiqlalımızı mühafizə etmək, vəssalam” (Hacıbəyli Üzeyir, “Azərbaycan” qəzeti, 9 oktyabr 1919).

“Qara təhlükə” adlı məqaləsində Üzeyir bəy çar Rusiyasının hüdudlarını bərpa etməyə çalışan, müstəmləkəçilik hökmranlığının tərəfdarı olan Denikini kəskin tənqid edirdi. O, Azərbaycan istiqlalının düşmənlərinin Denikin və erməni-daşnak birləşmələrindən ibarət olmadığını yazır, “içimizdəki denikinlər” barəsində də xalqa məlumat verirdi (“Azərbaycan” qəzeti, 1919, №198).

Göz yaşları qurumamışdı. Müstəqilliyə təşnə millət azadlıq sevincini hələ doyunca yaşamamışdı. Soydaşlarının keçirdiyi hissləri 1920-ci ilin aprelində “Ağlayırdım, gülürəm!” adlı şeirində Əhməd Cavad belə dilə gətirirdi:

Arkadaşlar, dörd yanıma baxdıqca,
Ağlayırdım, ağlayırdı irmaqlar!
Yurd oğlunun göz yaşları axdıqca,
Ağlayırdım, ağlayırdı topraqlar!

*(“Azərbaycan” qəzeti, 6 aprel 1920, № 68)*

Həmin şeirinin sonuncu misralarındakı fikirlər isə şairin gözlənilən təhlükədən yurddaşlarına xəbərdarlığı kimi səslənir:

... Ay yurd oğlu, ağlayanlar keçəndə
İstər idi bu gün səni güldürsün!
Sarı yüzlü dayduları gör sən də,
Qoyma bir də işığını söndürsün!

Əsirgədi bu gün səni yaradan,
Öz yurdunu verdi sənin əlinə!
Dayduları çıxartmısan aradan,
Saqın, bir də sataşmasın gözünə!

Göstərməsən bundan sonra sən ərlik,
Beş gün çəkməz yurdun-yuvan dağılar!
Qardaş kimi eyləməsən həp birlik,
Yenə girər torpağına yağılar!

*(“Azərbaycan” qəzeti, 6 aprel 1920, № 68).*

Hələ Azərbaycan Xalq Cümhuriyyətinin bir illiyini qeyd etməyə hazırlaşdıqları zaman Üzeyir bəy “Azərbaycan” qəzetində yazırdı: “Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da, ondan sonra Rusiyadan alınmış olan “üsyançı”lar üzərinə tökülüb, onları bir itaətə məcbur etmək işinə uğraşacaqlar”. O müdhiş günlər yetişirdi...

*(Ardı var)*

**Zöhrə FƏRƏCOVA, “Azərbaycan”**

# Kəndə payız gəlir



Bəlkə bu kəndin adını çəkməmək də olardı. Çünki bənzər mənzərələrə indi Azərbaycanın əksər kəndlərində rast gəlmək olar.

Kənd camaatı payızı qarşılayır. Yazın torpağı əkib-becərmək, yayın məhsulu yetişdirmək qayğıları artıq arxada qalıb. İndi bağ-bostanın barını dərib bəhrələnmək, çəkilən zəhmətin nəticəsini görüb fərəhlənmək vaxtıdır. Bu, Lerik rayonu Kiravud kənd sakini Ağəddin Məmmədovun ailəsinin əhvali-ruhiyyəsində də aydın duyulur.

Ağəddin kişi təsərrüfat işləri ilə məşğul olur. Böyük ailəsinin bütün üzvləri zəhmətsevərdir. Ona görə də dolanışıqla bağlı heç bir çətinlikləri yoxdur.

Kiravud sakinlərinin əsas məşğuliyyəti bağçılıq, əkinçilik, heyvandarlıqdır. Arıçılıqla məşğul olanlar da çoxdur. Onlardan biri bu sahədə yaxşı səriştə qazanmış gənc arıçı Qorxmaz Əsədovdur. Payızda o da zəhmətinin şirin barını görür. Bu yerlərin balının isə ləzzətinə və yüksək müalicəvi xüsusiyyətlərinə söz ola bilməz.

*Foto Ağəəli MƏMMƏDOVUNDUR, "Azərbaycan"*

---

*Təkrar*

## "Azərişıq"ASC 2018-ci ildə tələb olunan müxtəlif gücdə gərginliyi yük altında avtomatik tənzimlənən transformatorların satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**

Müxtəlif gücdə gərginliyi yük altında avtomatik tənzimlənən transformatorların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Rövşən Əsgərov**
**(telefon: 440-39-93 daxili (22-33))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 sentyabr 2018-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **03 oktyabr 2018-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 oktyabr 2018-ci il saat 16:00-da Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankında

### *istismarda olan informasiya sistemlərinin texniki və proqram platformalarının dəstəklənməsi və informasiya təhlükəsizliyi üzrə müdaxilə sınaqlarının keçirilməsi üzrə*

## TENDER ELANI

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı aşağıdakı **LOT**-lar üzrə açıq tender keçirir:

**1-ci LOT üzrə** tenderin predmeti: Mərkəzi Bankda istismarda olan Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin, Baş Mühasibat Sisteminin və Portfel İdarəetmə Sisteminin texniki platformalarının bir il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması.

**2-ci LOT üzrə** tenderin predmeti: Mərkəzi Bankda istismarda olan Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin, Maliyyə savadlığı portalının proqram platformalarının bir il müddətində on-site tipli dəstəklənməsi, habelə BMC Remedy proqram təminatının lisenziyasının dəstəklənməsi xidmətinin satın alınması.

**3-cü LOT üzrə** tenderin predmeti: Mərkəzi Bankda informasiya təhlükəsizliyi üzrə müdaxilə sınaqlarının keçirilməsi (pentest) xidmətinin satın alınması.

Tender proseduru 05 oktyabr 2018-ci il tarixdə saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət (ərizə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *xidmətin göstərilməsi üzrə ən azı 2 (iki) sertifikatlaşdırılmış mütəxəssisin olmasını təsdiq edən sənədlərin surəti;*
- *3-cü LOT üzrə iddiaçının ən azı 3 (üç) ildən az olmayan müddətdə müvafiq sahə üzrə xidmətin göstərilməsi ilə bağlı təcrübəsi barədə məlumat (yerinə yetirilən xidmətlər, müştərilərin adları, ünvanları və əlaqə nömrələri);*
- *tenderin əsas şərtlər toplusunda iddiaçıların ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar;*
- *iki nüsxədə Azərbaycan dilində tender təklifi (tender təklifi 19 noyabr 2018-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faiz məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən formada).*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 04 oktyabr 2018-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 25 sentyabr 2018-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılır və iddiaçı tenderə buraxılmır.

4. İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına hər bir iştirak etdiyi LOT üzrə 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir: Azərbaycan Respublikasının Mərkəzi Bankı, hesab N AZ25NABZ01701190000000001944, m/h AZ74NABZ01451700000000001944, kod 501004, VÖEN 9900071001.

5. Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER, account N AZ25NABZ01701190000000001944.

6. Xidmətlərin göstərilməsi müddəti:

**- 1-ci LOT üzrə:** 28 oktyabr 2018-ci il tarixdən etibarən 1 (bir) il müddətində.

**- 2-ci LOT üzrə:** 28 oktyabr 2018-ci il tarixdən etibarən 1 (bir) il müddətində. Proqram təminatının 1 (bir) illik dəstəklənmə lisenziyası tender üzrə satınalma müqaviləsi imzalandığı gündən ən geci 30 (otuz) təqvim günü ərzində təhvil verilməlidir.

**- 3-cü LOT üzrə:** müqavilə imzalandığı gündən ən geci 50 (əlli) iş günü müddətində.

7. İddiaçıların tender təkliflərinin qiymətləndirilməsi amilləri: maliyyə və texniki amillər.

8. Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan, 3-cü LOT üzrə həmçinin ingilis dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tenderin 1 və 2-ci LOT-ları üzrə əlaqələndirici şəxsi: Elman Muradov (İnformasiya texnologiyaları departamentinin əməkdaşı). Telefon: 493-11-22 (499), faks: 493-55-41, elektron poçt ünvanı: elman_muradov@cbar.az; 3-cü LOT üzrə əlaqələndirici şəxs: Elvin Şahverdiyev (Təhlükəsizlik departamentinin əməkdaşı). Telefon: 493-11-22 (308), faks: 493-55-41, elektron poçt ünvanı: elvin_shahverdiyev@cbar.az.

***Tender komissiyası***

---

*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi uşaq bağçaları və uşaq evləri üçün 282100 maddəsi üzrə tədbirlərin satın alınması məqsədilə

### açıq tender elan edir

**LOT -1 - Müəllimlər günü ilə əlaqədar tədbir**
**LOT-2 - Uşaq evlərində yeni il tədbiri**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 50 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Kamran Şövkət oğlu Əsədov tel: 492-63-90

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu 210005**
**VÖEN 1401555071**
**M/H AZ41NABZ01360100000000003944**
**SWIFT CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H AZ27CTRE00000000000002518337**
**VÖEN 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə Təsnifatının kodu 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədləri Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 25 sentyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş, ikiqat zərfdə 03 oktyabr 2018-ci il saat 18:00-a qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (ünvan: İstiqlaliyyət küç., 18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 4 oktyabr 2018-ci il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

---

## Nigeriyada silahlı hücum nəticəsində 11 nəfər həlak oldu



Nigeriyanın Plateau ştatında baş vermiş silahlı hücum nəticəsində azı 11 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Məlumata görə, yaralılar xəstəxanalara yerləşdirilmişdir. Polis ölənlərin sayının artacağını istisna etmir.

Hadisə ilə əlaqədar təhqiqat başlamışdır. Hücumun təşkilatçıları hələ ki məlum deyil.

Xatırladaq ki, ötən həftə həmin ştatın başqa bir rayonunda hücum nəticəsində 8 nəfər həlak olmuş, sakinlərin 95 evi yandırılmış, 310 baş iri mal-qara oğurlanmışdır.

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## "Cebi" Yaponiyada 1,2 milyon nəfəri işıqsız qoydu



Yaponiyada tüğyan edən "Cebi" tayfunu üzündən Osaka, Gifu, Mie və Ayti prefekturalarında 1,2 milyondan çox sakin işıqsız qalmışdır. Bu barədə "Kansai Electric Power" və "Chubu Electric Power" energetika şirkətləri məlumat vermişdir.

Qasırğadan sonra ölkənin bu hissəsində günəşli və isti hava bərqərar olmuşdur. İşığın olmaması adamları kondisioner işlətməkdən məhrum etmişdir.

Kioto prefekturasında yeganə yol dağıldıqdan sonra 160 məktəbli yay düşərgəsindən çıxa bilmir.

Təkcə Osaka prefekturasında 2 min işıqfor işləmir. Bu isə yol-nəqliyyat hadisələrinin baş verməsi riskini artırır.

Təbii fəlakət Kansay hava limanına böyük ziyan vurmuşdur. O, su altında qalmışdır və işini nə vaxt bərpa edəcəyi hələ ki məlum deyil. Aeroportun binasında 3 min sərnişin və yüzlərlə əməkdaş gecələmişdir. Dünən səhər onları katerlərlə Kobe hava limanına daşımağa başlamışlar.

Son məlumata görə, "Cebi" tayfunundan ölənlərin sayı artıq 10 nəfərə çatmışdır. 300 nəfərdən çox adam müxtəlif dərəcəli xəsarət almışdır.

## BMT-nin missiyası Suriyada işini bərpa etdi



Colan yüksəklikləri rayonunda BMT-nin missiyası öz işini bərpa etmişdir. Yaxın vaxtlarda Suriyanı qonşu İsraillə birləşdirən yol açılmalıdır. Bu barədə vesti.ru saytı xəbər verir.

Məlumata görə, sülhməramlılar iki ölkə arasında yerləşən keçid məntəqəsində keşik çəkirlər. Onların təhlükəsizliyini Rusiya hərbi polisi təmin edir. Bunun sayəsində Kuneytrə əyalətində genişmiqyaslı işlər aparılır.

"Rossiya 24" telekanalının xəbərinə görə, ərazidən ağır silahlar müsadirə olunmuşdur. Yüngül silahları isə suriyalı istehkamçılar məhv edirlər.

## Nikaraquada etiraz aksiyalarında ölənlərin sayı 481 nəfərə çatdı

Nikaraquada hökumət əleyhinə etiraz nümayişləri zamanı həlak olanların sayı 481 nəfərə çatmışdır. Onlardan 410-u odlu silah yarasından dünyasını dəyişmişdir. Daha 4 min nəfərdən çox adam yaralanmış, təxminən 1200 nəfər tutulmuş, yaxud itkin düşmüşdür. Bu barədə "RIA Novosti" agentliyi xəbər verir.

Bundan əvvəl bildirilirdi ki, aprel ayından bəri etiraz nümayişləri zamanı 317 nəfər həlak olub. Onlardan 21-i polis əməkdaşı, 23-ü isə uşaqlar və yeniyetmələrdir.

Xatırladaq ki, ölkədə hökumət əleyhinə etirazlar cari ilin aprelində yerli hakimiyyət orqanlarının təklif etdiyi islahatdan sonra başlamışdır. İslahat işəgötürənlərin və əməkçilərin sosial sığorta fondlarına ödənişlərinin miqdarının artırılmasını nəzərdə tuturdu.

Sonradan Prezident Daniel Orteqa həmin islahatı ləğv etsə də, kütləvi çıxışlar səngimir. İndi müxalifət növbədənkənar seçkilər keçirməyi tələb edir. Orteqa isə bununla razılaşmır və baş verənləri ölkəyə qarşı qəsd kimi qiymətləndirir.

## Əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.

2018-ci il sentyabr ayının 3-də saat 23:30 radələrində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Astara rayonu Kələdəhnə kəndi yaxınlığındakı sahil nəzarəti bölməsinin xidməti ərazisində "Niva" markalı AZ 43-BC-686 nömrəli dövlət nömrə nişanlı avtomobilin sahilboyu əraziyə yaxınlaşması sərhəd naryadı tərəfindən müşahidə olunmuş, avtomobildə olan 3 nəfər naməlum şəxsin yaxınlıqdakı kolluğa yaxınlaşmaları, onlardan birinin kolluqda nəyisə axtarması və əlində dolu kisə ilə qayıtması şübhə doğurmuşdur. Qeyd edilən şəxslərin yaxalanması barədə qərar verilmiş, sərhədçilərin "Dayan" komandasını eşidərək qaçmağa cəhd edərkən onlar havaya xəbərdarlıq atəşi açıldıqdan sonra saxlanılmışlar. Kolluqdan götürülmüş kisəyə baxış zamanı ümumi çəkisi 2 kq 650 qram olan narkotik vasitə (1 kq tiryək, 1 kq həşiş, 650 qram heroin), 285 ədəd metadon həbi aşkar olunmuşdur.

Saxlanılmış vətəndaşların şəxsiyyəti müəyyən edilmiş, onların Lənkəran rayon sakini, 1984-cü il təvəllüdlü Əliyev Xaliq Bayram oğlu, Lerik rayon sakinləri - 1979-cu il təvəllüdlü Bayramov Fuad Həsənağa oğlu və 1982-ci il təvəllüdlü Xosurov Rüfət Rizvan oğlu olmaları məlum olmuşdur.

Fakt üzrə Dövlət Sərhəd Xidmətinin İstintaq və Təhqiqat İdarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmışdır.

*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

### ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər Sabunçu Rayon Məhkəməsinin hakimləri Ziya Şirinov və Əşir Səmədov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi İlham İbrahimova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Saatlı Rayon Məhkəməsinin sədri İxtiyar Abuşov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi İlham İbrahimova anası

**ƏFRUZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8653
Sifariş 2577